QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 120 (5592) 29 **iyun** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymət 40 qəpik**

# Möhtəşəm hərbi parad Azərbaycan Ordusunun qüdrətini dünyaya nümayiş etdirdi

*Ali Baş Komandan İlham Əliyev:* *"Azərbaycan xalqı əmin ola bilər ki, ordumuz istənilən vəzifəni icra etməyə hazırdır"*



Səh 2

14

**AŞPA-nın "siyasi məhbus" oyunbazlığı**



12

**Azərbaycana turist axını güclənir**



16

**Braziliya və İsveçrə 1\8 finalda!**



# Möhtəşəm hərbi parad Azərbaycan Ordusunun qüdrətini dünyaya nümayiş etdirdi

***İyunun 26-da Azərbaycanın Silahlı Qüvvələrinin "Azadlıq" Meydanında keçirdiyi möhtəşəm hərbi parad, bir daha sübut etdi ki, qüdrətli Ordumuz dünya orduları içində ən müasir silahlara malik olan, eləcə də, hərbi sənayesi inkişaf edən bir çox üstünlüklərə malikdir. Eyni zamanda, Ali Baş Komandan, ölkə Prezidenti Cənab İlham Əliyevin nitqində irəli sürdüyü fikirlər Azərbaycan Ordusunun davamlı şəkildə və sürətlə inkişaf etdiyini bariz şəkildə sübuta yetirmiş oldu.***



*<u>Ali Baş Komandan İlham Əliyev:</u> "Azərbaycan xalqı əmin ola bilər ki, ordumuz istənilən vəzifəni icra etməyə hazırdır"*










## "Gün gələcək, işğaldan azad olunmuş torpaqlarda qaldırılan Azərbaycan bayrağı "Azadlıq" Meydanına gətiriləcək və hərbi paradda nümayiş etdiriləcək"

Əlbəttə, burada əsas məqamlardan biri də işğalçı Ermənistana verilən sərt mesajlar idi ki, bu da həmin ölkədə ciddi ajiotajların yaranmasına səbəb oldu. Xüsusilə, baş nazir Nikol Paşinyanın təhlükəsizlik şurasının iclasını çağırması, cəbhə boyu, xüsusilə, Naxçıvanda Azərbaycan Ordusunun fəallığını və nailiyyətlər qazandığını etiraf etməsi verilən mesajların məntiqi nəticəsi kimi qiymətləndirilə bilər. Beləliklə, Cənab İlham Əliyevin 2016-cı ilin aprel ayında və bu ilin mayında Naxçıvanda əldə edilən hərbi uğurlarının Ermənistanın dünyaya sırıdığı stereotipləri kökündən məhv etdiyini vurğulaması öz təsdiqini tapmış oldu. "Aprel döyüşləri Ermənistanın öz ordusu ilə bağlı yaydığı mifi darmadağın etdi" deyən İlham Əliyev Cənabları öz nitqində "Gün gələcək, işğaldan azad olunmuş torpaqlarda qaldırılan Azərbaycan bayrağı "Azadlıq" Meydanına gətiriləcək və hərbi paradda nümayiş etdiriləcək" ifadələrini əzmlə, inamla və qətiyyətlə bəyan etdi. "Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır" deyə vurğulayan Ali Baş Komandanımız, həmçinin, qeyd etdi ki, Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir.

## "Azərbaycanda 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir"

Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan Ordusunun inkişaf mərhələsinin daha bir reallığı ordu quruculuğunun təməlini təşkil edən hərbi sənayemizdir. Belə ki, hərbi paradda müxtəlif ölkələrdə istehsal edilmiş və ən müasir standartlara malik olan hərbi-texniki avadanlıqlar, silah-sursatlar və s. adda hərbi təchizatlarla yanaşı, ölkəmizdə istehsal edilən, eləcə də, xarici ölkələrə də ixrac edilən hərbi təyinatlı məhsullarımız nümayiş olundu. Bütün bunlar, bilavasitə Silahlı Qüvvələrimizin potensialının yüksək səviyyədə formalaşmasının ali göstəricisidir. Ölkə başçımız öz nitqində vurğulayıb: "Azərbaycanda 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir". Artıq Azərbaycan Ordusunun gücünü və qüdrətini bir sıra xarici ölkələr də qəbul edir və yüksək qiymətləndirir. Belə ki, hərbi paradın gedişini xarici ölkələri təmsil edən 100-dən çox hərbi attaşelər də izlədi, bu reallıqların şahidlərini çevrildi. Ona görə də Prezident İlham Əliyev nitqində bildirdi ki, bu parad Azərbaycan Ordusunun gücünü düşmənə və bütün dünyaya nümayiş etdirəcəkdir.

## "Ermənistan Azərbaycanla rəqabət apara bilmir və heç vaxt buna nail ola bilməyəcək"

Təbii ki, Silahlı Qüvvələrimizin əldə etdiyi hər bir nailiyyətlərin, zəfərlərin arxasında xalq-dövlət birliyi də dayanmaqdadır. Hələ dördgünlük aprel müharibəsi zamanı Ordumuzun zəfər yürüşü bütün ölkə boyu, həmçinin, xarici ölkələrdə yaşayan on minlərlə soydaşlarımız tərəfindən qürurla alqışlandı. Bu amil, məhz xalq-dövlət sarsılmaz birliyinin gerçəkliyi olaraq dəyərləndirilməkdədir. Bundan ruhlanan Ordumuz və hərbçilərimiz də hər an işğalçı düşmənə layiqli dərs verəcəyini əməli şəkildə sübuta yetirmiş olur. Prezident İlham Əliyev paraddakı nitqində də bu amilə toxunaraq, vurğulayıb ki, biz elə bir güclü Ordu yaratmışıq ki, düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir: "Azərbaycan xalqı əmin ola bilər ki, Ordumuz istənilən vəzifəni icra etməyə hazırdır".

Bəli, Ermənistan bu reallıqdan, bu gerçəklikdən ciddi şəkildə təlaş keçirməkdədir və işğalçı ölkənin hərbi ekspertləri, politoloqları, müxtəlif araşdırmaçıları həyəcan təbillərini döyməyə başlayıblar. Çünki Azərbaycanın dövlət başçısının - Prezident İlham Əliyev Cənablarının "Ermənistan Azərbaycanla rəqabət apara bilmir və heç vaxt buna nail ola bilməyəcək" kəlamı Azərbaycanın heç vaxt işğalla barışmayacağı mesajı idi.

Xüsusilə, Naxçıvanda əldə edilən hərbi nailiyyət və Ordumuzun 11 min ha ərazini düşmən tapdağından azad etməsi Ali Baş Komandanımız tərəfindən qeyd edildi: "Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur və istənilən vəzifəni yerinə yetirə bilər... Bu gün hərbçilərimiz ermənilərin qazdıqları səngərlərdə xidmət göstərirlər". Beləliklə, Azərbaycanda keçirilmiş möhtəşəm hərbi parad ölkəmizdə Ordu quruculuğunun yüksək səviyyədə formalaşmasını növbəti dəfə isbatlamış oldu. Bu gün Ermənistan və bu işğalçı ölkənin havadarları həmin reallığı dərk etməli, zamanında geri çəkilərək, ölkəmizin haqq və ədalət çağırışlarına riayət etməlidirlər. Əks halda, Silahlı Qüvvələrimiz növbəti dəfə və daha sərt şəkildə qarşısına qoyduğu məqsədlərinə çataraq, ədaləti bərpa etməli olacaq.

***Rövşən RƏSULOV***

# Azərbaycan nümayəndə heyəti Mahaçqalada görkəmli ictimai-siyasi xadim Maqomedsalam Umaxanovun 100 illik yubileyi tədbirində iştirak edir

***İyunun 28-də Rusiya Federasiyası Dağıstan Respublikasının paytaxtı Mahaçqalada görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Maqomedsalam Umaxanovun 100 illik yubileyi ilə bağlı tədbir keçirilir.***

AZƏRTAC-ın müxbiri xəbər verir ki, yubiley tədbirində Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov, Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Qafqaz Müsəlmanlar İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov, Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev və Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov iştirak edirlər. Azərbaycan nümayəndə heyəti vaxtilə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi işləmiş görkəmli dövlət xadimi Əziz Əliyevin Mahaçqala şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıb.




Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin müavini İlyas Umaxanov və Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov abidə önündə çıxış edərək görkəmli dövlət xadimi Əziz Əliyevin Dağıstan və Azərbaycan xalqlarının sarsılmaz dostluğunun rəmzinə çevrildiyini qeyd ediblər. Əziz Əliyevin Dağıstana başçılıq etdiyi çox mürəkkəb bir dövrdə - 1942-1948-ci illərdə respublikanın inkişafı üçün gördüyü böyük işlərdən söhbət açılıb.









Daha sonra Azərbaycan nümayəndə heyətinin üzvləri Əlibəy Taxo-Qodi adına Dağıstan Milli Muzeyində olublar. Qonaqlara muzeydəki qiymətli eksponatlar barədə ətraflı məlumat verilib.

Görkəmli dövlət xadimi Maqomedsalam Umaxanovun 100 illik yubiley mərasimi Mahaçqala şəhərindəki Maksim Qorki adına Dövlət Rus Dram Teatrının binasında keçiriləcək.

Maqomedsalam Umaxanov Dağıstan MSSR Nazirlər Sovetinin sədri (1956-1967), Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi (1967-1983) vəzifələrində çalışıb. Böyük Vətən müharibəsi illərində cəbhədə mərdliklə vuruşub. M.Umaxanov müharibədən sonrakı illərin qurucularından biri, Dağıstan Respublikasının çiçəklənməsi naminə yorulmaq bilmədən çalışan, xalq arasında yüksək nüfuz qazanmış partiya və dövlət xadimlərindən biri olmaqla yanaşı, gündəlik həyatda da çox səmimi və sadə bir insan kimi tanınıb.



# Oktyabrda Dayanıqlı İnkişafa dair Bakı Forumu keçiriləcək

***Oktyabrın 25-26-da Dayanıqlı İnkişafa dair Bakı Forumu keçiriləcək. Forum çərçivəsində "İnteqrasiya, sürətləndirmə və siyasətə dəstək" (MAPS) missiyasının nəticələrinə dair Bakı Bəyannaməsinin qəbul olunması və Azərbaycan Hökuməti ilə BMT Avropa İqtisadi Komissiyası tərəfindən əməkdaşlıq sazişinin imzalanması nəzərdə tutulur. Bu barədə iyunun 28-də Nazirlər Kabinetində keçirilən Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının növbəti iclasında məlumat verilib.***




Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov deyib ki, Bakı Forumu Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsində beynəlxalq və regional tərəfdaşlığın genişləndirilməsi mövzusunda təşkil ediləcək. Forum Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və BMT-nin Azərbaycan Nümayəndəliyinin təşkilatçılığı ilə keçiriləcək. Forumda BMT-nin rəhbər şəxslərinin və beynəlxalq ekspertlərin iştirakı planlaşdırılır.

Şura sədri qeyd edib ki, 2019-cu ilin yayında Yüksək Səviyyəli Siyasi Foruma Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatı təqdim ediləcək. DİM-in milli inkişaf proqramlarına uyğunlaşdırılması əsas vəzifələrdəndir və bu, çox vacib məsələdir. Sonra Dayanıqlı İnkişafa dair Bakı Forumu barədə məlumat verən iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, forum 6 sessiyadan ibarət olacaq. Tədbirdə BMT-nin yüksək səviyyəli nümayəndələri, Şərqi və Mərkəzi Avropa və Mərkəzi Asiya ölkələrinin nümayəndələri, eləcə də, beynəlxalq ekspertlər də daxil olmaqla, 250 nəfərin iştirakı nəzərdə tutulur. Bundan başqa, forum zamanı BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf üzrə Gündəliyinin məqsədlərinin təşviqi, innovasiyaların həvəsləndirilməsi, həmçinin, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının və Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin icrasına dəstək məqsədilə iqtisadiyyat, nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirliklərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Milli Elmlər Akademiyası və BMT-nin Azərbaycan nümayəndəliyinin birgə elan etdiyi İkinci Respublika İnnovasiya Müsabiqəsinin təltifetmə mərasimi keçiriləcək.

İclasda forumun təşkili üçün işçi qrup və təşkilat komitəsinin yaradılması, gündəlik layihəsi və Bakı Bəyannaməsinin layihəsi kimi məsələlərə baxılıb.

Həmçinin, iclasda ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyalarının DİM ilə uzlaşdırılması, məqsədlərin prioritetləşdirilməsi və MAPS hesabatının nəticələri müzakirə edilib. Fəlakət Risklərinin Azaldılması üzrə Sendai Çərçivə Sənədindən (2015-2030) irəli gələn hədəflərin milli səviyyədə həyata keçirilməsi, habelə, fəlakət risklərinin azaldılması üzrə milli strategiyanın hazırlanmasının şura tərəfindən əlaqələndirilməsi məsələləri də nəzərdən keçirilib. Sonda Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatının hazırlanması, Dayanıqlı İnkişafa dair Bakı Forumunun təşkili ilə bağlı müvafiq qurumlara tapşırıqlar verib.

# İtaliya mətbuatı Bakıdakı hərbi paraddan yazıb

***İtaliyanın nüfuzlu "Agenzia Nova" xəbər saytında "Bakıda hərbi paradda Türkiyə istehsalı olan Som-B1 raketi nümayiş etdirilib" sərlövhəli məqalə yerləşdirilib.***




AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan ilə Türkiyənin müdafiə sahəsində sıx əməkdaşlığından və qardaş ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akarın və Türkiyənin müdafiə naziri Nurettin Caniklinin hərbi paradda iştirakından söz açılıb. Yazıda Bakıda hərbi paradda Som-B1 raketinin nümayişinin tarixdə unikal bir hadisə olduğu qeyd edilir. Bildirilir ki, Türkiyənin müdafiə şirkəti "Roketsan" tərəfindən istehsal edilən quru və dənizdəki hədəfləri məhv etmək üçün hazırlanan Som-B1 raketi 230 kiloqram döyüş mərmisinə sahibdir. Raket 250 kilometrdəki hədəfi məhv etmək bacarığına malikdir.

# Mübariz Qurbanlı: "Dini mütəxəssislərin hazırlanması yeni hal deyil"



"Azərbaycan çar Rusiyasının tərkibində olanda İslamın başqa dinlə əvəz olunması üçün tədbirlər görülüb. Bunun da səbəbi bəlli idi". SİA-nın verdiyi məlumata görə, bunu Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Dini təhsil: mövcud vəziyyət və hədəflər" mövzusunda keçirilən konfransda deyib. Onun sözlərinə görə, bu, müstəmləkə siyasəti idi və təkcə Azərbaycana deyil, bütövlükdə İslam dünyasına qarşı yönəlmişdi: "Azərbaycanda İslam sahəsində dini mütəxəssislərin hazırlanması yeni hal deyil. Lakin həmin dövrlərdə məscidlərin fəaliyyətinin məhdudlaşdırılması bu işə maneə yaradırdı. Bu da dini təhsilin səviyyəsini aşağı salırdı. Yalnız II dünya müharibəsindən sonra bu sahə üçün geniş imkan yarandı. Çox az sayda insan dini sahədə təhsil ala bilirdi. Sovet dövründə Azərbaycanda cəmi 17-18 məscid fəaliyyət göstərirdi. Din deyəndə cənazə namazı və dəfni başa düşülürdü".

Dövlət Komitəsinin sədri əlavə edib ki, bu gün ölkədə fəaliyyət göstərən məscidlərdə çalışan din xadimlərinin bir hissəsi təhsil almış şəxslərdir: "Azərbaycanda yüksək ixtisaslı ali təhsil verəcək İlahiyyat İnstitu yaradılıb. Tək İslam dini ilə bağlı deyil, digər dinlərlə bağlı da təhsil veriləcək. Burada təhsil ödənişsiz olduğundan gənclərin xarici ölkələrə getməsinə lüzum qalmayacaq. Eyni zamanda, institutda həm bakalavr, həm magistr, həm də doktorantura pilləsi üzrə təhsilin olması planlaşdırılır. Bakı İslam Universiteti fəaliyyətini bundan sonra da davam etdirəcək".

# 90 minə yaxın şəxsin əmək pensiyaları artırılacaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 iyun 2018-ci il tarixli "2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" Fərmanı ölkəmizdə əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsində növbəti addımın atılmasına imkan verib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən qezetimizə verilən məlumata istinadən, həmin Qayda 2017-ci il 1 iyul tarixinədək əmək pensiyası təyin edilmiş hərbi qulluqçuların və xüsusi rütbəli şəxslərin, dövlət qulluqçularının və sair ("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsində nəzərdə tutulan şəxslərin) qulluq stajına görə, əmək pensiyasına əlavənin məbləğinin yenidən hesablanması Qaydasını müəyyən edir.

"Əmək pensiyaları haqqında" Qanuna, 1 iyul 2017-ci il tarixdən edilmiş dəyişikliklərdən biri kimi, Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş həmin şəxslərin əmək pensiyalarının üzərinə qulluq stajına görə əlavələrin hesablanmasında staj tələbi və əlavəni almaq hüququn yaranması ilə bağlı yeni Qayda tətbiq edilməyə başlanıb. 1 iyul 2017-ci il tarixədək əmək pensiyası təyin edilmiş həmin şəxslərin pensiyalarına qulluq stajına görə, əlavələrin hesablanmasının yeni mexanizmə uyğunlaşdırılması və əmək haqqında, təminat xərcliyində və dövlət məvacibində artımlar olduqda, onların da pensiyalarını bu artımlara müvafiq artırılması təmin edilir.

Azərbaycan Prezidenti İlham Əliyevin 25 iyun 2018-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası" əsasında müvafiq kateqoriyalardan olan, ümumilikdə, 90 min nəfərə yaxın əmək pensiyaçısının əmək pensiyalarına qulluq stajına görə əlavələr yenidən hesablanaraq artırılacaq. Edilmiş artımlar qeyd olunan şəxslərə növbəti ayın, yəni iyul ayının pensiyaları ilə birgə toplam halda ödəniləcəkdir.

***ZÜMRÜD***

# Ermənistan ordusunda daha bir RƏZALƏT



Ermənistanda hərbi xidmət keçərkən öldürülən əsgərlərin anaları bu gün yenidən hökumət binasının qarşısına toplaşıblar. SİA-nın xəbərinə görə, bu günlərdə Erməni general Manvel Qriqoryanın davranışı ilə bağlı etirazını bildirən analardan biri Ermənistan ordusunda baş verən dəhşətli faktları açıqlayıb: "Artıq 8 ildir ki, Ermənistan ordusunda baş verənlərlə bağlı etirazımı bildirirəm. Orduda özbaşınalıq baş alıb gedir. Ermənistan ordusunda oğurluq və koorupsiya dəhşətli vəziyyətə gəlib çatıb". Onun sözlərinə görə, orduda baş verən oğurluğa şahid olan əsgərlər öldürülür: "Necə ki, mənim oğlum. Oğlum bizimlə telefon əlaqəsi saxlayarkən bildirdi ki, ora hərbi qulluq yeri deyil, özbaşınalıq baş alıb gedir. O, hərbi hissədən yanacağın necə oğurladığını öz gözləri ilə görmüşdü. Lakin ona susmaq əmri verilmişdi. Bu danışıqdan heç bir ay keçməmiş oğlumu məhv etdilər".

Analar oğullarının ölüm hallarının yalnız Manvel Qroqoryan kimilərinin həbsində sonra aradan qalxacağını bildiriblər. Qeyd edək ki, bir neçə gün bundan öncə Ermənistan Milli Təhlükəsizlik Xidməti deputat və general, Qarabağ müharibəsinin qəhrəmanının evində aparılan xüsusi əməliyyatın görüntüləri yayımlanıb. İyunun 16-da Ermənistan parlamentinin deputatı, general Manvel Qriqoryan Milli Təhlükəsizlik Xidməti tərəfindən saxlanılıb. Aparılan axtarışlar zamanı MTX əməkdaşları xeyli sayda silah və sursat aşkarlayıb.

# İnamla Qarabağa doğru





***Regionun lider dövləti statusunu daşıyan Azərbaycanda həyata keçirilən ordu quruculuğu silahlı qüvvələrimizin döyüş hazırlığı baxımından kifayət qədər mükəmməl bir səviyyəyə gəlib çatmasına səbəb olub. Bu, hər bir azərbaycanlı üçün qürur doğurduğu halda, işğalçı Ermənistan isə getdikcə daha böyük təşvişə rəvac verməkdədir. Erməni tərəfini narahat edən ən başlıca məqamlardan biri döyüş qabiliyyətini davamlı surətdə yüksəldən Azərbaycan Ordusunun yeni hərbi texnika ilə təmin edilməsidir.***

Bu gün müasir və güclü orduya sahib olan Azərbaycanda ordu quruculuğu 1993-cü ildən - Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra həyata keçirilməyə başladı. Yalnız bundan sonra Azərbaycanda hərbi sahədə yeni mərhələ başlandı. Hələ sovet dövründə Azərbaycanda hərb sahəsinin inkişaf etdirilməsinə böyük əhəmiyyət verən Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra da bu məsələdə prinsipial mövqe nümayiş etdirdi.

## Ordumuzun və Azərbaycan Cümhuriyyətinin 100 illik yubileyinə Azərbaycan əsgərinin qələbə töhfələri

2016-cı ilin aprel döyüşləri Azərbaycanın şanlı tarixi qələbəsi, Ermənistanda isə cəmiyyətdə yeni parçalanmanın və hakimiyyətə qarşı etirazların daha ucadan ifadə edilməsinin əsasını qoydu. Məhz aprel döyüşləri bir daha Ermənistanın hərbi müstəvidə də böyük tənəzzül yaşadığını, güclü Azərbaycan Ordusu qarşısında duruş gətirməkdə aciz olduğunu əyani şəkildə üzə çıxardı. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər, onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir.

İnamla Qarabağa doğru irəliləyən ordumuz Azərbaycanın işğal edilmiş ərazilərində - Qarabağdakı qoşunların təmas xəttində işğalçı və təcavüzkar Ermənistan tərəfindən 2016-cı ilin 2-5 aprel tarixlərində törədilən təxribata qüdrətli silahlı qüvvələrimizin cavab verməsi nəticəsində işğal altında olan 2000 hektara yaxın ərazimizin, o cümlədən, strateji əhəmiyyət daşıyan Lələtəpə və Talış yüksəkliklərinin geri qaytarılmasından, Cocuq Mərcanlının düşmən nəzarətindən çıxmasından, o cümlədən, işğalçıların tapdağı altında olan on minlərlə hektar əraziyə, bilavasitə nəzarət etmək imkanı qazanmasından, həmçinin, işğalçı ölkənin 300-dən çox hərbçisinin və çoxsaylı texnikasının məhv edilməsi davm etməkdədir. Bu, bir daha sübut etdi ki, Azərbaycan dövləti Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bu günə qədər irəli sürülmüş təşəbbüslərin qarşısını almağa cəhdlər edən təcavüzkar Ermənistanın burnunu ovdu, eləcə də, layiq olduğu yeri göstərdi! O cümlədən, beynəlxalq aləmə də sübut olundu ki, Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil və Qarabağda hər an böyük hərbi əməliyyatlar başlamaq ehtimalı mövcuddur. Məhz bu səbəbdən, dünya biliyi anlamağa başladı ki, müharibə baş verərsə, bunun ağır fəsadları böyük bir müharibə qaçılmaz olar və bütün regionda daha ağır fəsadlar törədər. Əlbəttə ki, məsuliyyət də təcavüzkar ölkənin və eyni zamanda, bu təcavüzə uzun illərdir ikili standartlarla yanaşan ATƏT-in Minsk Qrupu həmsədrlərinin üzərinə düşər.

## Aprel döyüşlərindən sonra Azərbaycan Ordusu növbəti uğurlu döyüş əməliyyatına Naxçıvan Muxtar Respublikasında imza atdı

Aprel döyüşlərindən sonra Azərbaycan Ordusu daha bir uğurlu döyüş əməliyyatına Naxçıvan Muxtar Respublikasında imza atdı. Bu dəfə də ordumuz tərəfindən düşmənə vurulan zərbə onu, sözün əsl mənasında, sarsıtdı. Naxçıvanın Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun bu istiqamətdə daha əlverişli mövqelərə sahib olmasına imkan verdi. Uğurlu əməliyyatlarla 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilən Günnüt kəndi 26 ildən sonra ordumuz tərəfindən azad olunub. Hələ ötən əsrin 90-cı illərində Şərur rayonunun Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndləri aramsız düşmən hücumlarına məruz qalırdı. Həmin vaxt işğal edilən Günnüt kəndində yaşayış binaları, o cümlədən, bir çox sosial obyektlər dağıdılıb, qaynar həyatın hökm sürdüyü qədim yaşayış yerimiz erməni vandalları tərəfindən xarabalığa çevrilib. Erməni mediası və saytlarının məlumatları, eləcə də, “razm.info armenia” portalının videoreportajında da, qeyd edildiyi kimi, mayın son günlərində Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər Əlahiddə Ümumqoşun Ordusunun əkshəmlə əməliyyatları ilə işğaldan azad edilib. Bununla da, ordumuz daha əlverişli mövqelərə sahiblənib, Xunut dağı və Ağbulaq yüksəkliyi, daha sonra isə Qızılqaya dağı və Mehridağ işğaldan azad edilərək, Dərələyəz mahalının Arpa kəndi (ermənilər adını dəyişdirərək, “Areni” qoyublar) nəzarət altına keçib. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub.

Elə bu günlərdə həmin kənddən reportaj yayımlayan erməni mediası və saytlarının məlumatları, eləcə də, “razm.info armenia” portalının videoreportajı da deyilənləri təsdiq edir. Həmin videoreportajda Azərbaycan Ordusunun irəliləməsindən və kəndin yaxınlığındakı postlarda mövqe tutmasından ciddi narahat olan kənd əhalisi Ermənistan Müdafiə Nazirliyinin onları aldatdığını və ordunun əraziləri qorumaq iqtidarında olmadığını qeyd edirlər.

## Ermənistanın məğlubiyyətlər seriyası davam edir

Heç şübhəsiz ki, Naxçıvan istiqamətində baş verənlər qurulmasının 100 illiyini qeyd edən ordumuzun və Azərbaycan Cümhüriyyətinin bir əsrlik yaşına ən böyük hədiyyədir. Ermənilər üçün isə bu hal məğlubiyyətlər seriyasının davamıdır.

Baş verənlər Ermənistanda çox böyük ajiotaja səbəb olacaq. Belə ki, məşhur Lələtəpə yüksəkliyi ələ keçəndən sonra bu, Serj Sarkisyanın Ermənistanda nüfuzunu yerə vurdu, onun hakimiyyətdən getməsinə ciddi təkan oldu. Günnüt əməliyyatı isə, heç şübhəsiz, eyni aqibəti Nikol Paşinyana yaşadacaq. Naxçıvandan düşmənə verilən gözdağı isə heç də təsadüfi xarakter daşımır. Qeyd etmək lazım gəlir ki, Naxçıvan tək Azərbaycan yox, ümumilikdə, türk dünyası üçün çox böyük geostrateji əhəmiyyətə malik bir məkandır. Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasətində də bu amil həmişə üstün yer tutur. Ali Baş Komandan İlham Əliyev də alınmaz qala olan Naxçıvanda ordu quruculuğuna xüsusi diqqət yetirir. Ölkə rəhbəri öz çıxışlarında dəfələrlə vurğulayıb ki, Naxçıvan strateji mövqedə yerləşir, ölkəmizin təhlükəsizliyi və inkişafı üçün xüsusi rol oynayır. Bu mənada, muxtar respublikaya göstərilən diqqət və qayğı Azərbaycan dövlətinin milli maraqlarının tələbidir. Bu gün muxtar respublikanın müdafiə potensialı və gücü durmadan artır, müdafiə sistemi təkmilləşdirilir, hərbi birliklərin döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılır. Əlahiddə Ümumqoşun Ordusunun əməliyyat işləri üzrə hazırlığının daha gücləndirilməsi məqsədi ilə xeyli sayda təlimləri keçirilib. Mövcud hazırlıqlar ordunun regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə istənilən döyüş əməliyyatlarının koordinasiyasını həyata keçirməyə imkan verir.

## Ermənistanı daha sarsıdıcı zərbələr gözləyir

Amma erməniləri bundan da sarsıdıcı zərbə elə Naxçıvan istiqamətindən gözləyə bilər və Prezident İlham Əliyev ötən ay Naxçıvanda səfərdə olarkən, ictimaiyyət nümayəndələri ilə görüşündə bunun anonsunu vermişdi: “Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar və texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın, demək olar ki, bütün növləri, yaxud əksər növləri Naxçıvana göndərilir... Bu gün Naxçıvan ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən, uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir”. Aydındır ki, bütün bunlar ermənilərə sərt xəbərdarlıqdır və işğalçı ölkə lazımi nəticə çıxarmasa, onu daha sarsıdıcı zərbələr gözləyir. Eyni zamanda, Azərbaycan əsgərinin yüksək mənəvi hazırlığı, döyüş ruhu, zəbt olunmuş ərazilərdən düşməni hər an geriyə atmaq üçün qisas hissi ilə alışıb-yanması işğalçı Ermənistanı getdikcə daha çox qorxudur.

İnanırıq ki, yaxın zamanlarda Azərbaycan Ordusu daha uğurlu əməliyyatlarla işğal altındakı torpaqlarımızı azad edərək, üçrəngli bayrağımızı doğma torpaqlarımızda dalğalandıracaq.

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan Ordusu növbəti genişmiqyaslı təlimlər keçirəcək



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, iyulun 2-dən 6-dək Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı təlimləri keçiriləcək. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, təlimlərə 20.000 nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dən artıq müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 30-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunacaq.

Təlimlərdə döyüş əməliyyatlarının aparılmasının müasir təcrübəsi nəzərə alınmaqla qoşunlar müxtəlif növ qoşun əməliyyatlarının keçirilməsi, o cümlədən şərti düşmənə yüksək dəqiqlikli silah sistemlərinin etibarlı raket, artilleriya, bomba-hücum, eləcə də aviasiya və pilotsuz uçuş aparatları (PUA) ilə atəş zərbələrinin endirilməsi, həmçinin genişmiqyaslı hücum əməliyyatının keçirilməsi ilə işğal edilmiş ərazilərin azad edilməsi üzrə tapşırıqları yerinə yetirəcək. Kəskin kəsişən ərazi və mürəkkəb dağlıq relyef, həmçinin radioelektron mübarizə şəraitində keçiriləcək təlimlərdə birləşmə və hərbi hissələrin qarşılıqlı fəaliyyəti, qoşunların və atəş vasitələrinin idarə olunması, eləcə də şərti düşmənin müxtəlif diversiya fəaliyyətlərinə qarşı taktiki epizodlar icra ediləcək. Təlimlərdə Azərbaycan Ordusunun silahlanmasına yeni qəbul edilmiş ən müasir silah növlərinin və hərbi texnikanın tətbiqi ilə müxtəlif poliqonlarda döyüş atışlarının keçirilməsi nəzərdə tutulub.

# Ac erməni əsgərinin Qarabağ reallığı



***İşğalçı Ermənistan ordusunun acınacaqlı vəziyyətdə qalması, silah, hərbi texnika və əsgər-zabit heyətinin heç bir hərbi normalara cavab verməməsi növbəti dəfə sübuta yetirilib. Bu dəfə bir erməni əsgərinin qohumu bu barədə fikirlərini ictimailəşdirib. Belə ki, 2016-cı ilin aprel müharibəsi zamanı işğalçı ordu 15 əsgərini bir neçə tankla birgə Cəbrayıl rayonunun boş qalmış kəndlərinin birində atıb. Həmin əsgərlər il yarım ərzində dağıntılar və xarabalıqlar arasında yataraq, hətta öz hərbi hissələrini belə görməyiblər. Bu sözləri Ermənistanın "epress.am" saytına həmin əsgərlərdən birinin xalası danışıb.***

## "Evə dönərkən isə deyirdi ki, il yarım adi elektrik lampası belə görməyib"

"Onun ali təhsili var idi, ona görə də Oktemberyana (Ermənistan) hərbi xidmətə apardılar. 6 aydan sonra isə, Qarabağa göndəriblər. Təxminən onun Qarabağa göndərilməsindən 10 gün sonra hərbi əməliyyatlar başladı. O, bizə heç nə demədi, biz isə düşünürdük ki, Ermənistandan getmiş 6 aylıq əsgərdir və cəbhə xəttinə göndərilməyəcək. Müharibə zamanı biz elə sanırdıq ki, o, hərbi hissəsindədir"-deyə müsahib adıçəkilən sayta açıqlamasında bildirib.

Onun sözlərinə görə, aprelin 2-də əsgər qrupunu hansısa kəndə aparıblar ki, onlar tərxis edilənədək, orada qalsınlar: "Aprelin 2-də onu nə vaxtsa zəbt edilmiş Azərbaycan kəndinə aparıblar, kəndin adını isə yadımda saxlamamışam, o, həmin kənddə il yarım qalıb və hərbi hissəyə geri qayıtmayıb. Bu, 15 nəfərdən ibarət qrup olub. Onlar orada qalarkən, elə bilirdilər ki, müharibə yenidən başlayacaq. Həmin kəndə aparan yol 3-4 saatlıqdır, onlar (zabitlər-red.) bu uşaqları orada qoymağa məcbur oldular. Onlarla hansısa kapitan da olub. Tanklarda yatıb, vaxtilə orada yaşamış bir azərbaycanlının dağılmış evinin daşlarından ev tipli yaşayış yeri düzəldiblər, damını isə qamışla örtüblər. Bir müddət orada yaşayıblar və yaxınlıqdakı çayda çimiblər. Evə dönərkən isə, deyirdi ki, il yarım adi elektrik lampası belə görməyib".

## "Hər ay ailəsindən 5000 dram pul istəyib"

Erməni qadının sözlərinə görə, əvvəllər ailəsi hərbi xidmətçiyə sovqat göndərirdilər, sonra o pul istəməyə başladı: "Sovqatları hər ay göndərirdik. Sonra o, ailəsindən hər ay 5000 dram istəyib. Soruşduqda ki, nəyə görə? O, cavab verirdi: onlar bizə heç nə gətirmirlər, biz isə özümüz-özümüzə yemək hazırlayırıq, biz 15 nəfərik, belə qərara gəldik ki, qida üçün pul yığaq. Yadımdadır ki, hətta kapitanın bank kartının hesabını da göndərmişdilər, sonra 3 ay hansısa bir qadının hesabına pul köçürürdük".

Göründüyü kimi, erməni ordusunun acınacaqlı bir vəziyyətdə qalmasını elə erməni xalqının özü etiraf etməkdədir. Bu kimi hadisələr isə Ermənistan ordusunda kifayət qədərdir. Nəticə etibarilə, həm də belə qənaətə gəlmək mümkündür ki, ermənilər işğal etdikləri ərazilərimizin, demək olar ki, bir çox hissələrində yaşamırlar və həmin ərazilər xarabalığa çevrilib. Bu baxımdan, güclü Azərbaycan Ordusunun bir həmləsi yerdə qalan işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad edilməsi ilə nəticələnə bilər. Çox yəqin ki, erməni ictimaiyyəti də bu reallığı artıq dərk etməyə başlayıb.

***Rövşən RƏSULOV***

# Eldar İbrahimov: Azərbaycana qarşı "siyasi məhbus" məsələsi üzrə məruzəçisinin təyin olunmasının heç bir ciddi əsası yoxdur



"AŞPA-da Azərbaycana qarşı "siyasi məhbus" məsələsi üzrə məruzəçisinin təyin olunmasının heç bir ciddi əsası yoxdur". Bu fikri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Eldar İbrahimov deyib.

E.İbrahimov bildirib ki, belə bir qərar ölkəmizə qarşı təzyiq vasitəsidir. Onun sözlərinə görə, Azərbaycanın sürətli inkişafı, inamla müstəqil siyasət həyata keçirməsi müəyyən beynəlxalq gücləri narahat edir.

"AŞPA-nın məlum qərarı da məhz ölkəmizin uğurlarına qarşı yönəlib. Azərbaycanda insan hüquq və azadlıqları tam təmin olunub. Heç kim siyasi baxışlarına görə həbs edilməyib. Azərbaycan hüquqi dövlətdir və hər kəs qanun qarşısında bərabərdir. Hansısa cinayət etmiş şəxsin həbs olunmasına siyasi don geyindirilməsi isə yolverilməzdir. Antiazərbaycançı mərkəzlərə çalışan müəyyən "QHT" və "hüquq müdafiəçiləri" var ki, onlar saxta "siyasi məhbus" siyahıları tərtib edirlər. Həmin dairələr isə bu saxta siyahılardan öz məqsədləri üçün sui-istifadə edir. Bütün bunlara rəğmən Azərbaycan heç vaxt öz milli maraqlarını, müstəqil siyasətini kiməsə güzəştə getməyib və getməyəcək. Ölkəmizə qarşı təzyiqlər göstərmək cəhdləri hər zaman iflasa uğrayıb. Bu qərar AŞPA-da Azərbaycana qarşı ikili standartlar siyasətinin növbəti bir göstəricisidir. Amma Azərbaycan heç zaman öz doğru yolundan dönməyəcək"-deyə, YAP İdarə Heyətinin üzvü vurğulayıb.

# XİN: Ermənistanın bu cür davranışı məsuliyyətsizlik, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizlikdir



Ermənistan BMT Nizamnaməsini və Helsinki Yekun Aktını kobud şəkildə pozaraq Azərbaycana qarşı gücdən istifadə edərək ölkəmizin suveren ərazilərini işğal edib. Ermənistan zəbt olunmuş əraziləri işğal altında saxlamaqla və burada qanunsuz hərbi fəaliyyəti davam etdirməklə ATƏT-in Vyana sənədi üzrə etimad və təhlükəsizlik tədbirləri rejiminin əsasını təşkil edən suverenlik, ərazi bütövlüyünə hörmət, silahlı qüvvələrin ölkə ərazisində yalnız qəbul edən dövlətin razılığı ilə yerləşdirilməsi kimi əsas prinsipləri pozur. Həmçinin Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində külli miqdarda hərbi texnika və şəxsi heyət cəmləşdirməklə özünün hərbi potensialının əhəmiyyətli hissəsini nəzarət rejimindən gizlədir. Nəticədə Vyana sənədi üzrə qarşılıqlıq prinsipinə zidd olaraq Ermənistan öz hərbi potensialı və fəaliyyəti barədə qeyri-düzgün məlumat verməkdə davam edir və öhdəliklərini kobud şəkildə pozur. Ermənistanın bu cür davranışı məsuliyyətsizlik, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizlikdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin keçirməyi planlaşdırdığı hərbi təlimlərə dair Ermənistan XİN-in verdiyi şərhlə əlaqədar Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. Hikmət Hacıyev qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal altında saxlamaqda davam etməsi və bu əsnada Ermənistan tərəfindən Azərbaycana qarşı gücdən istifadə edilməsinin davam etdirilməsi regional sülh və təhlükəsizlik üçün ən başlıca təhdid olaraq qalmaqda davam edir.

# Lüksemburq xarici işlər naziri: Azərbaycan bizimlə dost ölkədir



Lüksemburqun Avropa və xarici işlər naziri Jan Asselborn Avropa Şurası Parlament Assambleyasının yay sessiyası çərçivəsində çıxış edib. J. Asselborn çıxışından sonra Parlament Assembleyasının üzvlərinin suallarını cavablandırıb. Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov Lüksemburq xarici siyasət idarəsinin rəhbərinə sualla müraciət edib.

Lüksemburq ilə Azərbaycan arasında sıx əməkdaşlığın və səmərəli siyasi dialoqun mövcudluğuna, Avropa İttifaqında ölkəmizin əsas tərəfdaşları sırasında olmasına toxunaraq, iki ölkə arasında diplomatik əlaqələrin yaranmasından 26 il ötdüyünü bildirib. İkitərəfli diplomatik münasibətlərin 25 illiyi münasibətilə onun təbrik məktubuna və bu məktubda 4 istiqamətdə - müxtəlif sahələrdə praqmatik və uğurlu əməkdaşlıq, iki ölkəni birləşdirən əlaqələrin gücləndirilməsi, hər iki xalqın bir-birini tanıması prosesinin dərinləşdirilməsi və iki dövlət arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə nail olunması kimi prioritetləri vurğuladığını qeyd edib.

Eyni zamanda, nazirin gələcəkdə əlaqələrin daha da yüksək səviyyəyə qalxması və iki dövlətin qarşılıqlı maraqları naminə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensial mövcud olduğunu diqqətə çatdırmasından bəhs edərək ona sual verib:

"2018-ci ilin ikinci yarısında Azərbaycana səfəriniz və bu səfər çərçivəsində Xarici İşlər nazirlikləri arasında danışıqların yeni mərhələsi nəzərdə tutulur.

İkitərəfli münasibətlərin inkişafı üçün geniş potensial deyərkən hansı imkanları nəzərdə tutursunuz və qarşıdakı görüş və müzakirələriniz ikitərəfli münasibətlərin inkişafına hansı yeni təkan verə bilər?"

Lüksemburqun Avropa və xarici işləri naziri J. Asselborn bildirib ki, Azərbaycan və Lüksemburq Avropanın eyni qurumlarında təmsil olunan, daim sıx əlaqələr saxlayan dost ölkələrdir. Dövlətlərarası münasibətlərdə şəxsi əlaqələrin də xüsusi rol oynadığını bildirən C.Asselborn diqqətə çatdırıb ki, Azərbaycan xarici işlər naziri ilə 15 ildir dostluq edir. Bu isə istənilən anda hər iki tərəflə bağlı hansısa məsələnin qarşılıqlı kömək və dəstək göstərməklə dərhal həll edilməsinə imkan yaradır. "Bu mənada ikitərəfli münasibətlərin inkişafında daim yalnız tərəqqidən söz aça bilərik", - deyə Lüksemburq xarici siyasət idarəsinin rəhbəri vurğulayıb.

# Ədalətsiz qurumun mövqeyi Azərbaycan üçün maraqlı deyil




***Avropa Şurası yay sessiyasına başlayıb desək, qurumun fəaliyyətini, missiyasını təfərrüatı ilə ərz edə bilmərik. Çünki bu qurum öz işinə başlayar-başlamaz, ölkəmiz əleyhinə çalışan məkrli qüvvələrin təsiri ilə yenə də Azərbaycana hədəflənib. Sanki bu qurumun Azərbaycandan başqa dərdi-səri yoxdur, yaxud Azərbaycandan başqa heç yerdə nöqsan axtarmaq niyyətində deyil.***

Maraqlıdır, etiraf etməkdən boyun qaçırsalar da, bütün dünyada hələ də qlobal maliyyə böhranı davam edir və bu, Avropa ölkələrində də müşahidə olunur. Özlərini böhrandan yaxa qurtarmış kimi göstərənlər özləri də yaxşı başa düşürlər ki, qlobal problemlər hələ də davam edir və bu problemlər onların özlərində də müşahidə edilməkdədir. Avropa ölkələrinin özündə belə iqtisadi tənəzzül, geriləmə göz qabağındadır və bütün dünya bunun fərqindədir. Avropa Şurası kimi bir təşkilatın müzakirəyə çıxaracağı qlobal problemləri azdırmı ki, yenə Azərbaycan müzakirə mövzusu olaraq seçilir, yaxud iki aydan sonra ölkəmizi müzakirə etmək üçün Azərbaycana məruzəçi təyin edilir? Avropada miqrant problemindən tutmuş, qida təhlükəsizliyi və çatışmazlığına kimi həlli vacib məsələlər yoxdurmu ki, müzakirə obyekti olaraq digər bir dövləti, özü də özlərinin geriləməsinə tərs mütənasib olaraq irəliləməkdə, inkişaf etməkdə olan, həm də Qafqazın lider dövlətini hədəf olaraq təyin edirlər? Bu gün insan haqlarından dəm vuran qurum dərk etmirmi ki, miqrasiyaya məruz qalanlar da insanlardır və onların da insan haqları, hüquqları var və əgər insan amili, insan haqları onları maraqlandırırsa, ilk növbədə, daxildəki miqrantların haqq və hüquqlarını müdafiə etməli və qayğılarına qalmalıdırlar?

## Avropa Şurasının Azərbaycanda insan haqlarını qorumaq iddiaları heç də səmimi görünmür

Sözügedən böhranın Ermənistan kimi cılız, marginallaşmış, iqtisadiyyatı olmayan, yoxsulluğa, səfalətə düçar olmuş uğursuz bir ölkədən tutmuş, Avropanın ən qabaqcıl dövlətlərinə kimi öz cənginə aldığı çətin bir zamanda, bu çətinliklərin fonunda ölkələrinin miqrasiyaya məruz qalmışlarla dolduğu bir məqamda mütəmadi, ardıcıl olaraq qlobal, beynəlxalq layihələrə imza atan, daim çiçəklənməkdə, dinamik inkişafda olan Azərbaycanı hədəfə almaq, guya ki, Azərbaycanda insan haqlarını qorumaq iddiaları heç də səmimi görünmür. Hazırda bir çox ölkələrdə qeyri-stabil yaşayış mühiti, hətta müharibə şəraiti, qarşıdurmalar, aclıq, səfalət, epidemiya və xəstəliklər, bir sözlə, həyati təhlükələr hökm sürdüyü səbəbindən Avropaya üz tutan miqrantların sayı durmadan artırsa, bu, AŞPA üçün həlli vacib yetərli problemdir və bu gün Avropa ölkələrinin dolub daşdığı bu qaçqın probleminin özü böyük bir müzakirə mövzusudur. Məgər avropalılar dərk etmirmi ki, qida və içməli su ehtiyatlarının tükənmək təhlükəsi ilə üz-üzədirlər və bu təhlükənin, daha doğrusu, problemin həlli günün ən aktial məsələsidir? Yaxud Avropa Şurası deyilən, özünü demokratik təşkilat, insan hüquqlarının qoruyucusu hesab edən qurum dərk etmirmi ki, Avropanı dolduran miqrantlar öz ölkələrini, yurd-yuvalarını öz xoşları ilə, keflərindən tərk edib həmin ərazilərə üz tutmayıblar? Parlamentarilər bilmirlərmi ki, miqrantların öz ölkələrində belə problemlər xirtdəyə qədərdir, insan haqları kobudcasına pozulur və ümumiyyətlə, insan haqları bir yana, insanlığın özünü belə hesaba alan yoxdur? Belə olan halda, öz gözündə tiri görməyənlər, heç olmasa, tükü problemin olduğu bölgələrdə axtarsınlar.

## Avropa Şurası özünün və öz parlamentarilərinin şəffaf və sağlam fəaliyyətinə inamsızlıq nümayiş etdirir

Avropa Şurası yenə də Azərbaycana məruzəçi təyin edib və ona iki aya hesabat hazırlamaq tapşırığı verilib. Bir dəfə də bu qurum hələ 5 il bundan əvvəl belə bir məruzəçi təyin etmişdi. Kristofer Ştrasser adlı bu məruzəçinin hazırladığı hesabatı AŞPA heç qəbul etmədi də. Çox təzadlı məqamlar ortaya çıxır və bilmək olmur Avropa Şurası öz məruzəçisinə inanmır, yaxud inanmayacağı birini niyə məruzəçi təyin edir? Ya da tamam başqa bir sual ortaya çıxır ki, görəsən, bu qurum öz rəyinə də şübhə və inamsızlıq göstərir ki, bir də təkrarən məruzəçi göndərir?

Bu ilin yaz sessiyasının əvvəlində AŞPA-nın özünün yaratdığı müstəqil araşdırma qrupu avropalı deputatların Bakıdan hədiyyələr aldıqlarını, buna görə də siyasi məhbuslarla, insan huquqları ilə bağlı hesabatın qəbulunu əngəllədiklərini yazdı. Çox təəccüb doğuran bir məqam ortaya çıxır və yenə də Avropa Şurası öz fəaliyyətini şübhə altında qoyur və əslində, bu, özü belə həmin qurumun qeyri-sağlam olmasının etirafıdır. Rəsmi Bakı heç zaman bu deyilənlərlə, əsassız şayiələrlə razılaşmayıb və hər zaman bu arqumentsiz iddiaları rədd edir, amma Avropa Şurası öz parlamentarilərinin şəffaf və sağlam fəaliyyətinə inamsızlıq nümayiş etdirir. Bir sözlə, Azərbaycan hökuməti iddiaların əsassız olduğuna əmin olsa da, bunu dəfələrlə bəyan etsə də, belə çıxır ki, Avropa Şurası öz işinə, öz üzvlərinin fəaliyyətinə inanmır. Bu da özlüyündə təsdiq edir ki, problem, əslində, digərlərində deyil, məhz AŞPA-nın özündədir. Ya Avropa Şurası özünə inanmır, ya da AŞPA kimi mötəbər bir beynəlxalq qurum kimlərinsə, təbii ki, "Azərbaycan əleyhinə fəaliyyət göstərən qüvvələrin təsiri altındadır və onların tapşırıqlarını yerinə yetirir" deyə, mütəmadi olaraq, ölkəmizi hədəf seçir. Daha dəqiq desək, bu, kimlərinsə AŞPA-nın vasitəsi ilə Azərbaycana yönəlmiş qərəzidir və Avropa Şurası özü də bu qərəzli oyunun iştirakçısı olmaqdadır, həmçinin, yenə də ölkəmizə qarşı ədalətsiz mövqe nümayiş etdirir.

## AŞPA məruzəçinin təyin olunması ilə insan haqlarının inkişaf etdirilməsini deyil, qərəzli siyasi məqsədlər güdürsə, bununla barışmaq olmaz

Sözsüz ki, sadalananların fonunda AŞPA öz nüfuzunu, imicini təhlükə altında qoyur və hər dəfə öz qərəzli mövqeyini ortaya atan bu təşkilat Azərbaycana deyil, yekunda öz müqəddəratına zərbə vuracaq. Çünki bu qurumun belə qərəzli mövqeyini müşahidə edən ölkələr heç də daim üzv olmaq həvəsində və niyyətində olmayacaqları inkar edilə bilməz. Nəticədə, yaxın gələcəkdə AŞPA özü hansısa beynəlxalq təşkilatın, yaxud təşkilatların müzakirə mövzusuna çevrilə bilər və təbii ki, ittihamlar da istisna deyil.

Azərbaycan tərəfi heç də narahat deyil və hansısa məruzəçinin ölkəmizə təyin edilməsinin əleyhinə də çıxış etmir. İnsan hüquqlarının qorunması istiqamətində Avropa Şurası ilə əməkdaşlığa da hazırdır. AŞPA tərəfindən məruzəçinin təyin olunması insan haqlarının inkişaf etdirilməsinə xidmət edirsə, Azərbaycan hökuməti buna tamamilə razıdır. Lakin rəsmi Bakı bu məsələlərin siyasiləşdirilməsinin, kimlərinsə qərəzli niyyətlərinə xidmət etməsinin əleyhinədir. Məruzəçinin təyin edilməsi qərəzli siyasi məqsədlər güdürsə, Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə olunması planlaşdırılırsa, bu, heç də insan haqlarının qorunması, mühafizəsi kimi dəyərləndirilə bilməz və bununla nəinki Azərbaycan, heç bir ölkə razılaşa bilməz. Təbii ki, AŞPA-nın konstruktiv mövqeyi insan haqlarının inkişafına xidmət edə bilər, amma Avropa Şurası nəzərə almalıdır ki, əks halda, yəni qeyri-konstruktiv mövqe münasibətlərin gərginləşməsi, hətta pozulması anlamına gəlir.

## Düşmən dəyirmanına hər zaman su tökən radikalların siması da, anti-Azərbaycan mövqeləri də ermənipərəstlərlə üst-üstə düşür

Doğrudur, dağıdıcı müxalifət də AŞPA-nın bu təyinatına don geyindirmək istəyir və hətta siyasi meyitlər belə indi dilə gəlib az qala siyasi şərhçi-ekspert kimi çıxış etmək həvəsinə düşüb. Məsələn, Siyasi Məhbuslarsız İnsan Haqları Alyansının koordinatoru Oqtay Güləliyev Avropa Şurasının Azərbaycana məruzəçi təyin etməsini bu sahədə yeni mərhələnin başlanğıcı hesab etdiyini düşünür. Xalq Cəbhəsi Partiyasının sədri Ə.Kərimli isə məruzəçinin təyin olunmasını Avropa Şurasının mənəvi məsuliyyəti dərk etməsi kimi dəyərləndirir. Sözsüz ki, bu, anormal yanaşmadır, amma ictimai fəal adı altında qanun pozucusu olan iki cüt bir tək həmfikirlərini müdafiə etmələri, düşmən dəyirmanına hər zaman su tökən radikalların simasının fonunda normal təzahürdür. Daha doğrusu, radikal müxalifətdən gözlənilən də elə budur. Çünki, Avropa Şurasına təsir edən ermənipərəstlərlə anti-Azərbaycan mövqləri də üst-üstə düşür.

Sanki nə Avropa Şurası, nə də onların sapı özümüzdən olan baltaları, yəni radikallar Cümhuriyyətin yaranmasının 100 illiyi ərəfəsində amnistiya və əfv fərmanından xəbərsizdilər. Yüzlərlə insanın azadlığa buraxılmasını belə ya görmürlər, ya da özlərini görməzliyə vururlar ki, bu da, öz növbəsində, hər birinin ölkə əleyhinə olan mövqeyini ortaya qoyur. Əks halda, AŞPA bu arqumenti layiqincə dəyərləndirər və Azərbaycanda insan haqlarının qorunmasını, humanizm prinsplərinə riayət olunmasını bütün dünya ölkələrinə nümunə gətirərdi. Bu il, Cümhuriyyətin yaranmasının 100 illiyi ərəfəsində heç vaxt olmadığı sayda məhbus azad edildi. Hələ bu vaxta qədər birdəfəyə 634 nəfər məhbusun azad edilməsi faktının kimsə şahidi deyil və məhz Prezident İlham Əliyevin humanistliyi sayəsində bu qədər insan azadlığa qovuşdu. Belə bir sayda əfv fərmanına, nəinki Azərbaycanda, heç özünü Avropa ölkəsi, ən üstün demokratik dövlət hesab edən heç bir məmləkətdə rast gəlinməyib. Cümhuriyyətin yaranmasının 100 illiyi ərəfəsində imzalanan əfv fərmanı ilk də deyildi və bu vaxta qədər ölkəmizdə hər il bunun şahidi oluruq. Görəsən, Avropa Şurası, yaxud bu təşkilatı ölkəmizə qarşı yönəldən qüvvələr bu fakt qarşısında heç utanmaq niyyətində deyillərmi? Axı Azərbaycan öz humanizmi, sülhsevərliyi, demokratikliyi ilə fərqlənib və hər zaman da nümunə olub və təkcə Avropa ölkələri, AŞPA kimi qurumlar deyil, bütün dünya bunun şahididir.

Dünya ictimaiyyəti Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını çox gözəl bilir və yerli, dinc əhalinin vəhşiliklə qətlə yetirilməsindən, cəsədlər üzərində işgəncələr edilməsindən, qalanlarının da yurd-yuvalarından didərgin salınmasından xəbərdardır. Bir sözlə, erməni vəhşilikləri, insanlığa sığmayan vandallıqları, daha dəqiq desək, insan haqlarını kobud şəkildə pozmaları diqqətdən yayına bilməz və bütün bunlardan sonra Azərbaycan tərəfi erməniləre qarşı belə adekvat reaksiya göstərməyib və ölkəmizə qarşı insan haqlarının pozulması ittihamı absurddur. Əgər AŞPA belə bir ittiham irəli sürmək niyyətindədirsə, əvvəlcə Ermənistanı təhlil etsin və həmin insan haqlarına görə işğalçılar mühakimə olunsun. Yox əgər Avropa Şurasının belə bir fikri yoxdursa, Ermənistanın, işğalçı rejimin əməllərinə göz yumub, məhz Azərbaycanı müzakirə mövzusuna çevirmək qərəzindədirsə, ölkəmizin belə bir qurumun rəyinə, münasibətinə və mövqeyinə zərrə qədər dəyər vermək niyyəti ola bilməz. Ədalətlilik prinsplərini qoruya bilməyən şuranın mövqeyi isə, təbii ki, nəinki Azərbaycan, ümumiyyətlə, heç bir ölkə üçün maraqlı ola da bilməz. Hadisələr təsdiq edir ki, AŞPA öz nüfuzunu risk altına qoyur və nəticə etibarı ilə qərəzi də öz başında çatlayacaq, bu ədalətliliyinin və qərəzliliyinin müqabilində ziyan da bu təşkilatın özünə dəyəcək.

*İnam İMRANOĞLU*

## Azərbaycanlı parlamentari AŞPA komitəsinin məruzəçisi seçilib



Avropa Şurası Parlament Assambleyasının yay sessiyası çərçivəsində qurumun sosial məsələlər komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda komitənin "Autizm diaqnozlu insanlar və onların ailələri ilə münasibətlər" adlı mövzu ilə bağlı məruzəçinin təyin edilməsi üçün səsvermə olub. Milli Məclisin deputatı, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sevinc Fətəliyevanın və britaniyalı Lord Don Touhigin namizədliyi irəli sürülüb. Deputat Sevinc Fətəliyeva səslərin əksəriyyətini toplayaraq AŞPA-nın sosial məsələlər üzrə komitəsinin məruzəçisi seçilib.

## Milli Məclisin son iclasında 39 məsələ müzakirə ediləcək

Azərbaycan Milli Məclisini növbədənkənar sessiyada iyunun 29-da keçiriləcək son plenar iclasının gündəliyinə əlavə məsələlər daxil edilib. SİA-nın məlumatına görə, iclasın gündəliyinə 4 yeni məsələ əlavə edilib, bununla iclasın gündəliyi 39 məsələyə çatıb. Bunlar, neft müqavilələri ilə bağlı iki sənədin ratifikasiyası, "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlara əlavə və dəyişikliklərdir.

## Xarici jurnalistlər Mətbuat Şurasında olublar



İyunun 28-də İordaniya, Birləşmiş Ərəb Əmirlikləri və Livandan olan jurnalistlər Azərbaycan Mətbuat Şurasında olublar. Bu barədə AZƏRTAC-a Mətbuat Şurasından məlumat verilib. Şuranın sədri, Milli Məclisin deputatı Əflatun Amaşov rəhbərlik etdiyi qurumun fəaliyyətindən, beynəlxalq əlaqələrindən söz açıb. O bildirib ki, son illər ərəb ölkələrindən Azərbaycana axın güclənib. Bu, Azərbaycanın turizm potensialına olan maraqdan irəli gəlir. "Əlbəttə, bu, bizim üçün önəmlidir və media da öz təbliğatı ilə turist səfərlərinin artmasına müstəsna töhfə verə bilər. Ancaq daha önəmli cəhət Azərbaycan jurnalistlərinin ərəb dünyasının tanınmış media qurumlarının təmsilçiləri ilə sıx təmaslarının yaranması və inkişaf etdirilməsidir. Bu baxımdan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində gerçəkləşdirilən təşəbbüslər daha faydalıdır. İnanıram ki, görüləcək işlər Azərbaycan həqiqətlərinin ərəb dünyasında mütəşəkkil qaydada işıqlandırılmasına təkan verəcək", - deyə sədr vurğulayıb. Qeyd edək ki, jurnalistlərin Azərbaycana səfəri İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının təşəbbüsü ilə gerçəkləşib. Assosiasiyanın sədri Fazil Abbasov qonaqların ölkəmizə səfər proqramı barədə məlumat verib, keçirdikləri görüşlərin səmərəli məqamlarından söz açıb.

## Robert Dadli: Gələn həftə "Şahdəniz-2"dən ilk kommersiya qazının nəqlinə başlanacaq

Gələn həftə Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq ilk kommersiya qazının nəqlinə başlanılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə BP-nin baş icraçı direktoru Robert Dadli 27-ci Ümumdünya Qaz Konfransı çərçivəsində şirkətin Vaşinqtondakı mənzil-qərargahında Cənub Qaz Dəhlizinə həsr olunan tədbirdə deyib. O bildirib ki, Cənub Qaz Dəhlizi dünyanın ən böyük enerji layihələrindən biridir və o, qaz axınına hazırdır. Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsinə Cənubi Qafqaz Boru Kəmərini genişləndirilməsi, TANAP və TAP boru kəmərləri daxildir.

# Bakıda "Dini təhsil: mövcud vəziyyət və hədəflər" mövzusunda konfrans keçirilib




***İyunun 28-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini təhsil: mövcud vəziyyət və hədəflər" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə DQİDK-nın və Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi, Prezident yanında Bilik Fondunun, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının təmsilçiləri, ilahiyyatçı alimlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.***

Konfransda çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, keçmiş sovet dövründə İslam dininə qarşı əks fəaliyyət aparılıb. Məscidlər dağıdılıb, din alimləri repressiyaya məruz qalıb. SSRİ-nin apardığı siyasət nəticəsində dini tədris ocaqlarının fəaliyyəti olmayıb. Bu siyasət İslam dini ilə yanaşı, xristianlığa və yəhudiliyə qarşı da aparılıb. Azərbaycan ikinci dəfə müstəqil olduqdan sonra ümummilli lider Heydər Əliyevin ölkədə müxtəlif dinlərin fəaliyyəti üçün imkan yaratdığını deyən komitə sədri vurğulayıb ki, Ulu Öndərin dini sahəyə diqqəti nəticəsində ölkəmizdə yeni məscidlər, sinaqoqlar və kilsələr tikilib. "Dini etiqad azadlığı haqqında" Qanunun qəbul edilməsi nəticəsində dini etiqadından asılı olmayaraq hər kəs rahat ibadət etmək imkanı qazanıb. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən Dövlət Komitəsinin sədri yaradılan Azərbaycan İlahiyyat İnstitutunu ölkəmizdə yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsinə, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanması prosesinə mühüm töhfə adlandırıb. Diqqətə çatdırıb ki, dini sahədə mənəvi dəyərləri əsas götürən, dinə məhdud çərçivədə deyil, geniş prizmada yanaşmağı bacaran, fəaliyyətində dünyəvilik, tolerantlıq və multikulturalizm kimi Azərbaycan gerçəkliklərini nəzərə alan yüksək dini və dünyəvi savada malik ixtisaslı kadrların hazırlanması zəruridir. M.Qurbanlı məhz Azərbaycan Prezidentinin bu uzaqgörən addımı sayəsində gənclərin dini sahədə qarşıya qoyulan məqsədlərə çatmaq üçün səylə çalışacaqlarına ümidvar olduğunu qeyd edib.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi Müzəffər Talıblı bildirib ki, Azərbaycanda bir çox sahələrdə olduğu kimi, dini sahədə də uğurlu siyasət həyata keçirilir. Aparılan siyasət beynəlxalq hüquq normalarına və tarixən formalaşmış demokratik dəyərlərə uyğundur. Ölkəmiz son illərdə dünyada dinlərarası harmoniyanın və millətlərarası münasibətlərin inkişafı məkanı kimi tanınır. Bu sahədə Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əvəzsiz fəaliyyətləri var. Bu gün Azərbaycandan dünyaya tolerantlıqla bağlı ciddi çağırışlar edilir. Gəncləri dini ekstremist qüvvələrin təsirindən uzaqlaşdırmaq üçün Azərbaycanda dini təhsil sahəsində də ciddi tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılmış İlahiyyat İnstitutu savadlı mütəxəssislərin hazırlanması ilə yanaşı, digər dini konfessiyaların nümayəndələrini də bu prosesə cəlb etmiş olur.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov tədbirdə geniş təqdimatla çıxış edib. O, yeni tədris ocağının fəaliyyət istiqamətləri ilə bağlı məlumat verib. Rektor Prezidentin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılmış Azərbaycan İlahiyyat İnstitutunun ilahiyyat üzrə ixtisaslaşmış ali təhsil müəssisəsi olduğunu qeyd edib. İnstitutun yaradılmasının əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların və mütəxəssislərin hazırlanmasını təmin etməkdən ibarətdir. İnstitutun tədris proqramında dini biliklərlə yanaşı, mükəmməl dünyəvi biliklərin də verilməsi nəzərdə tutulub. Rektor 2018-2019-cu tədris ili üçün Azərbaycan İlahiyyat İnstitutuna ilk dəfə həyata keçiriləcək tələbə qəbulunun Dövlət İmtahan Mərkəzinin xətti ilə III ixtisas qrupu üzrə iki istiqamətdə - islamşünaslıq və dinşünaslıq ixtisasları üzrə həyata keçiriləcəyini qeyd edib. Ceyhun Məmmədov institutun fəaliyyətində müxtəlif dünya ölkələrində mövcud olan aparıcı ali təhsil müəssisələrinin təcrübələrindən faydalanacaqlarını bildirib.

Prezident yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının Prezident İlham Əliyevin dini sahəyə göstərdiyi diqqətin bariz nümunəsi olduğunu deyərək qarşıdakı tədris ilində institutla birgə layihələr həyata keçirməyi planlaşdırdıqlarını bildirib. İcraçı direktor rəhbərlik etdiyi qurum ilə Azərbaycan İlahiyyat İnstitutu arasında əlaqələrin qurulmasının müsbət nəticələr verəcəyinə əmin olduğunu deyib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov isə çıxışında dövlət səviyyəsində dini sahəyə göstərilən qayğıdan bəhs edib. O, son dövrdə Prezident İlham Əliyevin Fərman və Sərəncamı ilə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını bu sahədə atılan strateji addımlar kimi dəyərləndirib. Bildirib ki, institutun kadrları Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin və zəngin multikultural mühitin qorunub saxlanılmasında xüsusi rola malik olacaqlar. R.Həsənov, eyni zamanda, sözügedən təhsil müəssisəsində Azərbaycan multikulturalizmi fənninin tədrisini arzu etdiyini bildirib.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili Azərbaycanda qeyri-müsəlman dini icmaların nümayəndələrinin təhsil almaları üçün yaradılan şəraitdən danışıblar. Onlar Azərbaycan İlahiyyat İnstitutunda dinşünaslıq ixtisasının yaradılmasından məmnunluqlarını ifadə edib və bu sahədə hazırlanacaq ixtisaslı kadrlara ciddi ehtiyac olduğunu vurğulayıblar. AMEA-nın müxbir üzvü, Fəlsəfə və Hüquq İnstitutunun şöbə müdiri Könül Bünyadzadə, Şərqşünaslıq İnstitutunun əməkdaşı Elvüsal Məmmədov, Xəzər Universitetinin baş müəllimi Mail Yaqub Azərbaycandakı dini təhsilin vəziyyəti, mövcud problemlər, görüləcək işlər barədə fikirlərini bölüşüblər.

AZEL AUDİT
AUDİT VƏ MƏSLƏHƏT XİDMƏTLƏRİ

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: e.suleymanova@azelish.com

**"AGT Menegment, Məsləhət və Tikinti Xidmətləri" Məhdud Məsuliyyətli Cəmiyyəti**

Biz "AGT Menegment, Məsləhət və Tikinti Xidmətləri" Məhdud Məsuliyyətli Cəmiyyətinin 31 dekabr 2017-ci il tarixinə təqdim edilən balans hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan konsolidə edilmiş (birləşdirilmiş) maliyyə hesabatlarının auditini apardıq.

*Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti*

Rəhbəırlik göstərilən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması müvafiq uçot siyasətinin seçilməsi, tətbiqi və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

*Auditorun məsuliyyəti*

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırması və aparmalmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi auditorun mühakiməsindən asılıdır. Bu risklər qiymətləndirərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə cəmiyyətin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman cəmiyyətin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumillikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

*Müsbət Rəy*

Bizim fikrimizcə, konsolidə edilmiş (birləşdirilmiş) maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından 31 dekabr 2017-ci il tarixinə cəmiyyətin maliyyə vəziyyəti və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirilir.

"Azel Audit" MMC
20 iyun 2018-ci il

Süleymanova Elzadə

*İllik maliyyə hesabatlarının tərtib olunması üzrə kommersiya təşkilatları üçün nümunəvi formalar*

**"AGT MENEGMENT, MƏSLƏHƏT VƏ TİKİNTİ XİDMƏTLƏRİ" MMC**
(Təşkilatın adı)

**Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatı**

**Mühasibat balansı**

**31 dekabr 2017-cı il tarixinə**

**Ölçü vahidi: manat**

| Bölmə/ Maddə №-si | Bölmə/Maddələrin adı | Qeydlər | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | **AKTİVLƏR** | | - | - | - | - |
| 1 | **Uzunmüddətli aktivlər** | | - | - | - | - |
| 10 | Qeyri-maddi aktivlər | 1 | - | 23117 | - | 25685 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 2 | - | 2668693 | - | 3419833 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | - | - | - | - |
| 13 | Bioloji aktivlər | | - | - | - | - |
| 14 | Təbii sərvətlər | | - | - | - | - |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | - | - | - | - |
| 16 | Təxirə salınmış vergi aktivləri | | - | - | - | - |
| 17 | Uzunmüddətli debitor borcları | | - | - | - | - |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | 3 | - | 581595 | - | 581595 |
| 19 | Sair uzunmüddətli aktivlər | | - | - | - | - |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **3273405** | - | **4027113** | - |
| 2 | **Qısamüddətli aktivlər** | | - | - | - | - |
| 20 | Ehtiyatlar | 4 | - | 6892201 | - | 2143302 |
| 21 | Qısamüddətli debitor borcları | 5 | - | 1650960 | - | 1259030 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 6 | - | 3042510 | - | 172409 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | - | - | - | - |
| 24 | Sair qısamüddətli aktivlər | 7 | - | 10605166 | - | 3979105 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **22190837** | - | **7553846** | - |
| | **CƏMİ AKTİVLƏR** | | **25464242** | - | **11580959** | - |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | - | - | - | - |
| 3 | **Kapital** | | - | - | - | - |
| 30 | Ödənilmiş nominal(nizamnamə) kapital | 8 | - | 1020000 | - | 1020000 |
| 31 | Emissiya gəliri | | - | - | - | - |
| 32 | Geri alınmış kapital (səhmlər) | | - | - | - | - |
| 33 | Kapital ehtiyatları | | - | - | - | - |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 8 | - | 11529184 | - | 3775230 |
| | **CƏMİ KAPİTAL** | | **12549184** | - | **4795230** | - |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | - | - | - | - |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | - | - | - | - |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | - | - | - | - |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | - | - | - | - |
| 43 | Uzunmüddətli kreditor borcları | | - | - | - | - |
| 44 | Sair uzunmüddətli öhdəliklər | 9 | - | - | - | - |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | - | - | - | - |
| 5 | **Qısamüddətli öhdəliklər** | | - | - | - | - |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 10 | - | 4735470 | - | 1340811 |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | - | - | - | - |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 10 | - | 307166 | - | 397767 |
| 53 | Qısamüddətli kreditor borcları | 10 | - | 4806138 | - | 4600098 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 10 | - | 3066284 | - | 447053 |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **12915058** | - | **6785729** | - |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **12915058** | - | **6785729** | - |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **25464242** | - | **11580959** | - |

**AGT Menegment, Məsləhət və Tikinti Ximətləri MMC-nin direktoru** — **Türkoğlu Murat**

**AGT Menegment, Məsləhət və Tikinti Ximətləri MMC-nin baş mühasibi** — **Zolkina İren**

*İllik maliyyə hesabatlarının tərtib olunması üzrə kommersiya təşkilatları üçün nümunəvi formalar*

**"AGT MENEGMENT, MƏSLƏHƏT VƏ TİKİNTİ XİDMƏTLƏRİ" MMC**
(Təşkilatın adı)

**Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatı**

**Mənfəət və zərər haqqında hesabat (xərclərin xüsusiyyəti üzrə)**

**31 dekabr 2017-cı il tarixinə**

**Ölçü vahidi: manat**

| Bölmə/ Maddə №-si | Bölmə/Maddələrin adı | Qeydlər | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 11 | 32201586 | 14927106 |
| 61 | Sair əməliyyat gəlirləri | 11 | 155871 | 65480 |
| | Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişikliklər | | - | - |
| | Müəssisə tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | | - | - |
| | İstifadə edilmiş material ehtiyatları | 12 | 20694774 | 5131899 |
| | İşçi heyəti üzrə xərclər | 12 | 2349773 | 971689 |
| | Amortizasiya xərcləri | 12 | 715872 | 1141697 |
| | Sair əməliyyat xərcləri | 12 | 4883663 | 6846748 |
| | Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər) | | - | - |
| | Əməliyyat mənfəəti (zərəri) | | - | - |
| 63 | Maliyyə gəliri | | - | - |
| 75 | Maliyyə xərcləri | 12 | 189562 | 152626 |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | - | - |
| | Vergiqoymadan əvvəl mənfəət (zərər) | | 3523813 | 747927 |
| 90 | Mənfəət vergisi | | 704762 | 149585 |
| 80 | Hesabat dövründə xalis mənfəət (zərər) | | 2819051 | 598342 |
| | Hər səhm üzrə mənfəət | | - | - |
| | Azaldılmış hər səhm üzrə mənfəət | | - | - |

**AGT Menegment, Məsləhət və Tikinti Ximətləri MMC-nin direktoru** — **Türkoğlu Murat**

**AGT Menegment, Məsləhət və Tikinti Ximətləri MMC-nin baş mühasibi** — **Zolkina İren**

*İllik maliyyə hesabatlarının tərtib olunması üzrə kommersiya təşkilatları üçün nümunəvi formalar*

**"AGT MENEGMENT, MƏSLƏHƏT VƏ TİKİNTİ XİDMƏTLƏRİ" MMC**

(Təşkilatın adı)

**Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatı**

**Kapitalda dəyişikliklər haqqında hesabat**

**31 dekabr 2017-cı il tarixinə**

**Ölçü vahidi: manat**

| | Qeydlər | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları | | | | | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yenidən qiymətləndirilmə üzrə ehtiyat | Məzənnə fərqləri üzrə ehtiyat | Qanunvericilik üzrə ehtiyat | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| Keçmiş hesabat dövrünün əvvəlinə olan qalıq 01/01/16 | | 1020000 | | | | | | | | 3176888 | 4196888 |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | | |
| Səhvlərin düzəldilməsindən sonra keçmiş hesabat dövrünün əvvəlinə olan qalıq | | | | | | | | | | | |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | | | | | | | | |
| Məzənnə fərqləri | | | | | | | | | | | |
| **Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər** | | | | | | | | | | | |

*İllik maliyyə hesabatlarının tərtib olunması üzrə kommersiya təşkilatları üçün nümunəvi formalar*

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | 598342 | 598342 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| **Kapitalın maddələri arasında köçürmələrdən (transferlər) əvvəl keçmiş hesabat dövrünün sonunda qalıq** | | | | | | | | | | | |
| Kapitalın maddələr arasında köçürülmələr | | | | | | | | | | | |
| **Keçmiş hesabat dövrünün sonunda qalıq 31/12/16** | | **1020000** | | | | | | | | **3775230** | **4795230** |
| **Keçmiş hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | | | | | **598342** | **598342** |
| **Hesabat dövrünün əvvəlinə qalıq 01/01/2017** | | **1020000** | | | | | | | | **3775230** | **4795230** |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə olan qalıq** | | | | | | | | | | | |

*İllik maliyyə hesabatlarının tərtib olunması üzrə kommersiya təşkilatları üçün nümunəvi formalar*

| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| Məzənnə fərqləri | | | | | | | | | | | |
| **Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər** | | | | | | | | | | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | 2819051 | 2819051 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | 4934903 | 4934903 |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| **Kapitalın maddələri arasında köçürmələrdən (transferlər) əvvəl hesabat dövrünün sonunda qalıq** | | | | | | | | | | | |
| Kapitalın maddələr arasında köçürülmələr | | | | | | | | | | | |
| **Hesabat dövrünün sonunda qalıq 31/12/17** | | **1020000** | | | | | | | | **11529184** | **12549184** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | | | | | **7753954** | **7753954** |

**AGT Menegment, Məsləhət və Tikinti Ximətləri MMC-nin direktoru Türkoğlu Murat**

**AGT Menegment, Məsləhət və Tikinti Ximətləri MMC-nin baş mühasibi Zolkina İren**

*İllik maliyyə hesabatlarının tərtib olunması üzrə kommersiya təşkilatları üçün nümunəvi formalar*

**"AGT MENEGMENT, MƏSLƏHƏT VƏ TİKİNTİ XİDMƏTLƏRİ" MMC**

(Təşkilatın adı)

**Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatı**

**Pul vəsaitlərin hərəkəti haqqında hesabat**

**31 dekabr 2017-cı il tarixinə**

**Ölçü vahidi: manat**

| | Qeydlər | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | **2017** | **2016** |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | | 2819051 | 598342 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | | |
| azlıq təşkil edən mülkiyyətçilərin payı | | | |
| mənfəət vergisi üzrə xərclər | | 704763 | 149585 |
| qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | 715872 | 1141697 |
| investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr | | 189562 | 152626 |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| ehtiyatlar | | (4748899) | (1361250) |
| əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri | | (7017991) | (3446142) |
| əməliyyat kreditor borcları və hesablamalar | | 2734670 | (197450) |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | | (704763) | (149585) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(5307735)** | **(3112177)** |
| | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | | |
| komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də, uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları | | (90753) | (915) |
| uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | 128589 | 55605 |
| törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin xaricolmaları | | | 2785520 |
| törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları | | | |

*İllik maliyyə hesabatlarının tərtib olunması üzrə kommersiya təşkilatları üçün nümunəvi formalar*

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları, | | | |
| törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| dividendlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | | 4934903 | |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **4972739** | **2840210** |
| | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları | | | |
| borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | 3503141 | |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | (108482) | |
| məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | | |

*İllik maliyyə hesabatlarının tərtib olunması üzrə kommersiya təşkilatları üçün nümunəvi formalar*

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | | (189562) | (152626) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **3205097** | **(152626)** |
| | | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **2870101** | **(424593)** |
| | | | |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | **172409** | **597002** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | **2870101** | **(424593)** |
| xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | | **3042510** | **2133361** |

**AGT Menegment, Məsləhət və Tikinti Ximətləri MMC-nin direktoru** **Türkoğlu Murat**

**AGT Menegment, Məsləhət və Tikinti Ximətləri MMC-nin baş mühasibi** **Zolkina İren**

## Bakı-Sumqayıt sürət elektrik qatarına əlavə vaqonlar quraşdırılacaq

Bakı-Sumqayıt avtomobil yolunda təmir işləri ilə əlaqədar yollarda uzun tıxac yarandığından, Bakı-Sumqayıt-Bakı istiqamətində hərəkət edən elektrik qatarlarının xidmətindən istifadə edən sərnişinlərin sayı artıb. SİA-nın verdiyi məlumata görə, bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin sərnişinlərə müraciətində bildirilir. Məlumatda həmçinin deyilir ki, sərnişin sıxlığının tənzimlənməsi məqsədilə, Bakı-Sumqayıt avtomobil yolunda təmir işləri başa çatana kimi, bu gündən (28 iyundan) etibarən Bakıdan 18.30-da, Sumqayıtdan saat 08.00-da yola düşən Bakı-Sumqayıt-Bakı elektrik qatarlarına əlavə heyət qoşularaq, birləşdirilmiş halda ikiqruplu qatar kimi hərəkət edir.

## "Beynəlxalq təşkilatlardan ədalət gözləməyə dəyməz"

"Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycana qarşı qərəz nümayiş etdirməsi ilk hal deyil". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.



Onun sözlərinə görə, Azərbaycanın yerləşdiyi ərazidə maraqları toqquşan, ölkəmizdə iqtisadi korporativ maraqları olan, Ermənistanın maraqlarını ifadə edən qüvvələr mütəmadi olaraq ən müxtəlif beynəlxalq platformalarda Azərbaycana qarşı kampaniya aparacaqlar: "Biz uzun illərdir ki, bunun şahidi oluruq. Bu gün dünyadan, beynəlxalq təşkilatlardan ədalət gözləməyə dəyməz. Amma şübhəsiz ki, bu platformaları tərk etmək lazım deyil. Çünki bu platformalarda sonuna qədər müdafiə olunmaq, mübarizə aparmaq, haqlı mövqeyimizi ifadə etmək lazımdır. Bu aspektdən də belə proseslərə hazır olmalıyıq. Eyni zamanda şübhəsiz ki, bu təxribat xarakterli addımlar atan qrupların kimliyi, mahiyyəti müəyyənləşdirilməlidir. Mütəmadi olaraq onların atdığı bu addımların hansı maraqlardan qaynaqlandığı haqda həmin o beynəlxalq təşkilatların özündə də, eyni zamanda kütləvi informasiya vasitələrində geniş şəkildə məlumat vermək lazımdır ki, baş verən proseslərin nədən qaynaqlandığı bir daha hər kəsə bəlli olsun".

## Qabil Hüseynli: "Hərbi Parad çox şeyə nöqtə qoydu"

"Azərbaycan Milli Ordusunun 100 illiyi ilə bağlı Bakıda keçirilən Hərbi Parad təkcə Ermənistan yox, ümumiyyətlə Azərbaycana qarşı qərəzli mövqedə dayanan və Dağlıq Qarabağ problemi ilə bağlı ikili mövqe, standartlardan istifadə edən bütün ölkələrdə ciddi dönüşə səbəb olacaq. Amma bizim üçün ən vacibi danışıqlar prosesi və onun necə gedəcəyidir". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.



"Əgər sülh danışıqları bir nəticə verməsə, məsələni fərqli müstəvidə həll edə bilərik. Ermənistanın baş naziri Nikol Paşinyan rejimi də bunu gördü. İndi Ermənistanda bəzi politoloqların şərhlərində sözsüz ki, dəyişikliklər hiss olunur. Bu gün Ermənistanın müharibə etməyə nə həvəsi, nə də potensialı var. Amma Azərbaycan öz 20 faiz ərazisini mütləq nəyin bahasına olursa-olsun azad etmək gücündədir. Təbii ki, bunu ortaya qoyan siyasi iradə də var. Azərbaycan Prezidenti İlham Əliyev Hərbi Paradda bunu qətiyyətlə bildirdi. Ermənistan da bu siyasi qətiyyəti aydın surətdə başa düşür. Yəqin ki, Ermənistan və onun havadarları həm danışıqlar prosesinə, həm də Azərbaycana münasibətdə müəyyən taktiki addımlara səy edəcəklər. Bu taktiki addımlarda müəyyən kompromislərin axtarılmasına səy göstərəcəklər. Hərbi Parad çox şeyə nöqtə qoydu", - deyə, politoloq fikrini tamamlayıb.

SİYASİ RAKURS

# Keçmiş AXCP üzvləri Əli Kərimliyə hücum etdilər

## *Onun timsalında isə dağıdıcı müxalifət ittiham olundu*

***Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli vaxtilə onun ətrafında olmuş, lakin sonradan onun çirkin əməllərinə və yalnız şəxsi maraqlarına xidmət etməsinin fərqinə vararaq, partiya sıralarından getmiş gənclərin ittihamlarına məruz qalıb. Demək olar ki, hücum xarakterli ittihamlarda Kərimlinin bütün siyasi, maliyyə fırıldaqları, eləcə də, onun timsalında dağıdıcı müxalifətin mövcud durumu əsas mövzu olaraq götürülüb.***

Əsas ittiham isə budur ki, başda Ə.Kərimli olmaqla, digər müxalifət "liderləri" illərdir müxalifətçilik çətiri altında öz "siyasi gedişləri" ilə ənənəvi düşərgənin vahidlik prinsipini pozublar və bu gün də eyni vəziyyət davam etməkdədir. O cümlədən, bildirilir ki, bir zamanlar müxtəlif vədlərlə yanlarına cəlb etdikləri şəxslər, xüsusilə, gənclər onlara verilmiş vədlərin heç birinin reallaşmadığını və aldadıldıqlarını bildirirlər. Onlar Ə.Kərimlinin və ətrafındakıların, eyni zamanda, digər "liderlərin" istər siyasi, istərsə də mənəvi cəhətdən tükəndiklərini vurğulamaqdadırlar. Çünki zamanında bu kimi "lider(lər)ə" dəfələrlə təkliflər edildiyini, gənclərə yol açmağın vacibliyi barədə təşəbbüslər edildiyini deyən gənclər, bunun qarşısında aqressiya gördüklərini də qeyd etməkdədirlər. Xüsusilə, belə olan hallarda Ə.Kərimli təklif verənləri, müxtəlif təşəbbüslərlə çıxış edənləri trolları vasitəsilə aşağılayıb, şantaj edib, öz aləmində satqın çıxarıb. Bu gün də Kərimlinin troll şəbəkəsi ona və ətrafına qarşı etiraz edənləri hədəfə alıb. Son günlər sosial şəbəkələrdə "köhnə dostlar"ın savaşı getdikcə daha da qızışır, sabiq cəbhəçi gənclər Ə.Kərimlinin yanında qalaraq, xam xəyallara qapılanları doğru yola çəkməyə çalışırlar.

### Sabiq cəbhəçi: "Xüsusilə, xaricdə fəaliyyət göstərən və özlərini müxalifət adlandıran qruplar və onların media rəhbərləri arasında ziddiyyətlər özünü göstərir"

Bu arada, vaxtilə Ə.Kərimlinin qatı müdafiəçilərindən biri olmuş Nəzakət Məmmədova baş verənlərlə bağlı maraqlı yanaşma edib və bildirib ki, hazırda düşərgə daxilində kəskin parçalanma baş alıb gedir. "Xüsusilə, xaricdə fəaliyyət göstərən və özlərini müxalifət adlandırılan qruplar və onların media rəhbərləri arasında ziddiyyətlər özünü göstərir"- deyə qeyd edən N.Məmmədovaya görə, "Meydan" TV-nin rəhbəri Emin Milli "Turan" TV-nin rəhbəri Qənimət Zahidi yalnız Ə.Kərimlini dəstəkləməkdə, digərlərinə, xüsusən, "Oyan Hərəkatı"nın üzvlərinə və rəhbəri Nahid Cəfərova efir vaxtı ayırmamaqda, gənc müxalifətçilərə qarşı ayrı-seçkilik etməkdə ittiham edir: "Eyni zamanda, keçmiş konsul Nahid Cəfərov Tofiq Yaqublu ilə debatda Müsavat və Ə.Kərimlini gənclərə meydan verməməkdə ittiham edib. Digər tərəfdən, Q.Zahid N.Cəfərovun təklif etdiyi "Oyan Hərəkatı"nın metodlarını nəzərdə tutaraq, gizli təşkilatlanma məsələsinin mümkün olmadığını vurğulayıb və buna misal olaraq "İŞİD"-i nümunə göstərib. Gizli təşkilatlanmanın terrorla müqayisə olunması isə həm "Oyan Hərəkatı"nı, həm də onunla həmrəylik göstərən Emin Milli, Həbib Müntəzir və digərlərini qəzəbləndirib. Bununla yanaşı, Qurban Məmmədovun "AzeriFreedom" kanalı açması da digər internet televiziyası açmış şəxslərin, xüsusilə də, Q.Zahidin narahatlığına və narazılığına səbəb olub. O, iki müxalif internet kanalın olduğunu deyərək, "AzeriFreedom" kanalını müxalifətyönümlü televiziya kimi qəbul etmədiklərini söyləyib. Q.Məmmədovun ona dialoq çağırışları da cavabsız qalıb. Sevinc Osmanqızı isə internetdə baş verən texniki qüsurlar üzündən yaranan nasazlıq problemlərini guya hakimiyyətin onun kanalına hücumu kimi göstərməyə çalışıb".

### "Ə.Kərimlinin komandası ilə E.Milli arasında narazılıq ABŞ Konqresinin binasında Helsinki Komissiyası ilə müzakirələrdə klassik müxalifətin marginallaşması ittihamından sonra başlamışdı"

Beləliklə, görünən budur ki, əslində, düşərgə daxilindəki hədsiz intriqalar və qarşıdurmalar, bilavasitə Ə.Kərimlinin əlinə oynayan vasitədir və AXCP sədri özü də qarşıdurmaların baş verməsində maraqlıdır. Çünki o, bir tərəfdən postunu kimsəyə verməmək üçün baş qatır, eləcə də, maliyyə maxinasiyalarını AXCP sədri olaraq davam etdirmək imkanını əlində saxlamağa cəhd göstərir.

Sabiq cəbhəçi də hesab edir ki, davadalaşın əsas səbəbi maliyyə əldə etmək üçündür: "Ə.Kərimlinin komandası ilə E.Milli arasında narazılıq ABŞ Konqresinin binasında Helsinki Komissiyası ilə müzakirələrdə klassik müxalifətin marginallaşması ittihamından sonra başlamışdı. Eyni zamanda, xaricdə fəaliyyət göstərən bu müxalif qruplar bir-birini hakimiyyətə işləməkdə ittiham edirlər. Onların arasında birlik və qarşılıqlı etimad yoxdur. Vidadi İsgəndərlinin mühacirlərin qurultayını çağırması deyilsə də, tədbirdə heç də əksər müxalifət görüşlü müxaliflərin iştirakı inandırıcı görünmür. Görünən odur ki, bu insanlar arasında maliyyə davası gedir".

N.Məmmədova ənənəvilərin siyasi səhnədən getməsinin vacib olduğunu deyib və belə bir şəraitdə, xüsusilə, illərdir müxalifətə "liderlik" etdiyini deyən şəxslərin getməsi və yerlərini gənclərə verməsi zamanının çatdığını bildirib. "Gənclər və daha yaşlı "liderlər" arasında rəhbər mövqelər uğrunda mübarizə qızışıb" deyən sabiq cəbhəçiyə görə, görünən odur ki, yaxın və orta perspektivdə bunların əsas mübarizəsi öz aralarındakı savaşda keçəcək.

**Rövşən RƏSULOV**



***Ölkədə iqtisadi inkişaf, yenidənqurma və abadlıq işlərinin görülməsi ölkənin daxili potensialı nəticəsində Azərbaycanda turizmin sürətli inkişafına gətirib çıxarıb. Yeni mehmanxana və hotellərin inşası və təmiri dövlət siyasətinin həyata keçirilməsində əsaslı rola malikdir. Belə ki, məlum olduğu kimi, paytaxtımızda dünya standartlarına cavab verən 5 beşulduzlu mehmanxanlar açılıb ki, bu da dünyada analoqu olmayan bir hadisədir. Bununla yanaşı, yeni dördulduzlu və üçulduzlu hotellər də inşa olunub. Azərbaycanın rayonlarında da bu sahədə işlər görülməkdədir. Artıq ölkəmizin bölgələrində hotelçiliklə bağlı bir sıra işlər görülmüşdür ki, bu da ölkə turizminin durmadan inkişafını reallaşdıran amillərdir.***

# Azərbaycana turist axını güclənir

Müasirlik turizm bazarının artmasına da təsirini göstərir. Təkcə bu ilin yanvar-may ayları ərzində Azərbaycana dünyanın 184 ölkəsindən 1 milyon 55,6 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxsin gəlməsi fikirlərimizi təsdiqləyir. Gələnlərin 29,3 faizi Rusiya Federasiyası, 22 faizi Gürcüstan, 12,1 faizi İran, 11,3 faizi Türkiyə, 4 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2 faizi Ukrayna, 1,8 faizi İraq, 17,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslərdir. Statistik məlumatlara istinadən, cari ilin yanvar-may aylarında Körfəz ölkələrindən (İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilib. Ötən ilin yanvar-may ayları ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 6 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,4 dəfə, Qətər və Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 1,9 dəfə, İraq vətəndaşlarının sayı 1,5 dəfə, Oman vətəndaşlarının sayı 32,4 faiz, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 6,8 faiz artıb. Beş ayda Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 12,6 faiz artaraq, 42,6 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 7,4 faiz artaraq, 367,4 min nəfər olub. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 59,9 faizi dəmir yolu və avtomobil, 39,2 faizi hava, 0,9 faizi isə su nəqliyyatından istifadə edib.

Bu gün ölkəmizdə turizmin inkişafı sahəsində əldə olunan nəticələr bu sahəyə ayrılan diqqətin nəticəsidir. Elə bir neçə gün bundan əvvəl Yeni Omanla Azərbaycan arasında birbaşa aviareysin açılması da turislərin ölkəmizə səfərinə şərait yaradacaq. Məsqətdən Bakıya birbaşa reysin açılması iki ölkə arasında turist axınını genişləndirəcək. Hazırda iki ölkənin paytaxtı arasında həftədə 3 aviareys həyata keçirilir. Lakin yaxın gələcək üçün daha çox reysin, xüsusən, bayram günlərində əlavə təyyarələrin ayrılmasına ümid bəslənilir. Bütün görülən işlər yaxın gələcəkdə Azərbaycana turist axınının daha da güclənəcəyindən xəbər verir.

**ZÜMRÜD BAYRAMOVA**

# "Nar" korporativ müştərilərlə görüş keçirib

***İyun ayının 22-də "Nar" operatoru özünün korporativ müştəriləri ilə görüş keçirib. 249 şirkət nümayəndəsinin dəvət edildiyi görüşün keçirilməsində əsas məqsəd korporativ müştərilərə mobil operatorun yeni imkanları barədə məlumatın verilməsi və əlaqələrin gücləndirilməsindən ibarət idi. Qeyd edək ki, görüşdə "Nar" ilə əməkdaşlıq edən şirkətlərlə yanaşı, mobil operatorun abunəçisi olmaları üçün hazırda danışıqlar aparılan şirkətlərin nümayəndələri də iştirak edirdilər. Bakı şəhərindəki "28 Mall" alış-veriş mərkəzində yerləşən "Cinema Plus" kinoteatrında baş tutan görüşdən sonra qonaqlar "Nar" zalında təqdim edilən "Ouşenin 8 rəfiqəsi" filminin nümayişinə dəvət edildilər.***

Biznes tərəfdaşlarının sayını ildən-ilə sürətlə artıran "Nar" artıq daha sərfəli şərtlərlə əməkdaşlıq təklif edir. Xatırladaq ki, mobil operator biznes üçün nəzərdə tutulmuş tarif planlarının tərkibində olan bonusları da artırıb. Şəbəkədaxili və şəbəkəxarici danışıq dəqiqələrinin, həmçinin beynəlxalq zənglərin həcmi tarifdən asılı olaraq 25%-dən 85%-dək artırılıb. Daha bir yenilik korporativ tarif planlarına şirkətdaxili limitsiz danışıq dəqiqələrinin əlavə edilməsidir. Sözügedən tariflər aylıq 8 AZN-dən başlayan abunə haqqı ilə təklif olunur.

Korporativ tarif planlarına qoşulan abunəçilər istər səsli xidmətlər, istərsə də mobil internet üçün sərfəli tariflərdən yararlanmaqla yanaşı, 24/7 rejimində çalışan xüsusi müştəri xidmətlərindən və yüksəkkeyfiyyətli mobil şəbəkədən də istifadə edirlər.

Korporativ tərəfdaşlıq üçün 789 telefon nömrəsi və ya business-nar@azerfon.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq olar. Təkliflərdən yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxslər yararlana bilərlər.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# Beynəlxalq sənədlər uşaq hüquqları haqqında

***Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 23-cü və 24-cü maddələrində uşaqların hüquqlarının müdafiəsi ilə əlaqədar 4 mühüm müddəa əks olunmuşdur. Belə ki, 23-cii maddənin 4-cü bəndində qeyd edilir ki, nikahın pozulması hallarında bütün uşaqlar üçün zəruri müdafiə nəzərdə tutulmalıdır. 24-cü maddədə 3 mühüm müddəa bilavasitə uşaqların hüquqlarının qorunmasına yönəlmişdir:***

- hər bir uşağın irqi, dərisinin rəngi, cinsi, dini, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti və doğuşu əlamətinə görə heç bir ayrı-seçkiliyə yol verilmədən, elə müdafiə tədbirləri hüququna malikdir ki, bu müdafiə tədbirləri, kiçik yaşlı vəziyyətində olduğuna görə, onun ailəsindən, cəmiyyətdən və dövlətdən tələb olunur;
- hər bir uşaq doğulduqdan sonra dərhal qeydə alınmalı və ada malik olmalıdır;
- hər bir uşaq vətəndaşlıq əldə etmək hüququna malikdir.

1966-cı il tarixli iqtisadi, sosial və mədəni hüquqlar haqqında

Beynəlxalq Paktın 10-cu maddəsinin 3-cü bəndində göstərilir ki, bütün uşaqlar və yeniyetmələrə münasibətdə ailə mənşəyinə və digər əlamətlərə görə heç bir ayrı-seçkilik salmadan xüsusi himayə və kömək tədbirləri görülməlidir. Uşaqlar və yeniyetmələr iqtisadi və sosial istismardan müdafiə olunmalıdırlar. Onların əməyinin onların mənəviyyatları və səhhətləri üçün zərərli, həyatları üçün təhlükəli və ya normal inkişaflarına ziyan vura biləcək sahələrdə istifadəsi qanunla cəzalandırılmalıdır. Bundan başqa, dövlətlər muzdlu uşaq əməyindən istifadə üçün yaş hədlərini müəyyənləşdirməlidirlər, həmin hədlərdən aşağı yaşlarda bu cür əməkdən istifadə qadağan edilməli və cəzalandırılmalıdır.

Bu istiqamətdə digər beynəlxalq sənədlər də qeyd edilə bilər. Məsələn, İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında. 1950-ci il tarixli Avropa Konvensiyasının müddəaları, nəinki uşaq hüquqları, həmçinin, bütövlükdə, insan hüquqlarının təminatında mühüm yer tutur.

Bütövlükdə, uşaq hüquqlarının müdafiəsi sahəsində qəbul edilmiş beynəlxalq sənədlərdə ayrı-ayrı müddəaların olmasına baxmayaraq, bu sahədə universal bir beynəlxalq müqavilənin qəbul edilməsinə ciddi ehtiyac duyulurdu.

N.Adilov yazır: "Bu istiqamətdə mühüm addım 20 noyabr 1989-cu il tarixli Uşaq Hüquqları haqqında Konvensiyanın qəbul edilməsi olmuşdur. Bütövlükdə, Uşaq Hüquqları haqqında 1989-cu il Konvensiyası insan hüquqlarının müdafiəsində yeni çoxtərəfli beynəlxalq müqavilədir. Burada, nəinki uşaq hüquqlarına aid mövcud normalar, həmçinin, onun təfsiri tarixi də nəzərə alınmışdır.

Uşaq Hüquqları sahəsində normaların vahid kompleks şəklində birləşdirilməsi və bütövlükdə, 1989-cu il Konvensiyasının qəbul edilməsinin zəruriliyini şərtləndirən bir neçə amillər mövcuddur.

Birincisi, 1924 və 1959-cu il Bəyannaməsində uşaq hüquqlarının müstəqil şəkildə tənzimlənməsinin və onun sonradan inkişaf etdirilməsinin əsası qoyulmuşdur.

İkincisi, insan hüquqları sahəsində bir sıra mühüm beynəlxalq sənədlərdə (məsələn, 1966-cı il tarixli Beynəlxalq Paktlarında) uşaqlara aid xüsusi maddələrin olması belə bir təsəvvür yaradırdı ki, yalnız bu maddələr uşaqlara aiddir.

Üçüncüsü, Beynəlxalq Paktlarda əks olunan heç də bütün hüquqlar uşaqların fiziki və psixi inkişafını nəzərə almırdı.

Dördüncüsü, insan hüquqları sahəsində qəbul edilmiş beynəlxalq sənədlərdə uşağın inkişaf edən şəxsiyyət kimi bütün xüsusiyyətləri nəzərə alınmırdı.

Beşincisi, heç də bütün dövlətlər bu beynəlxalq sənədlərin iştirakçısı deyildi."

Bu istiqamətdə mühüm işlər 70-ci illərdən başlamışdır. 1979-cu ildə belə bir Konvensiyanın qəbul edilməsi üzrə işçi qrupu yaradılmış və Konvensiyada uşaq hüquqlarının müdafiəsi istiqamətlərində müddəaların əks etdirilməsi istiqamətində mühüm addım atılmışdı. Avstriya hüquqşünası Helmut Vintersberqer Konvensıyanın mahiyyətindən danışarkən, qeyd edir ki, Konvensiya ilə uşaqlar obyekt deyil, subyekt kimi müstəqil fəaliyyət göstərən vətəndaşlar kimi müəyyən edilir və o, bunu 21-ci əsrə istiqamətlənmiş mühüm addım hesab edir. E.Rıbinskinin fikrincə. Uşaq Hüquqları haqqında 1989-cu il Konvensiyasında uşaq, ilk növbədə, cəmiyyətdə şəxsiyyət və müstəqil subyekt kimi xarakterizə edilir. Bu isə onların hüquq və maraqlarının prioritetini, onların müdafiə və realizəsini əsaslandırır.

Y.M.Kolosovun fikrincə, 1989-cu il Konvensiyası onun iştirakçıları olan dövlətlərin əməl etməli olduqları universal beynəlxalq sənəddir. Daha sonra, onun fikrincə, Konvensiya insan hüquqları sahəsində yeganə beynəlxalq sənəddir ki, onun müddəaları şəxsiyyətin həm mülki və siyasi hüquqlarını, həm də sosial-iqtisadi hüquqlar kompleksini əhatə edir.

Konvensiya uşaqları cəmiyyətin tam hüquqlu üzvü kimi tanımışdır. Uzun müddət uşaqların valideynlərə və onlara qayğı göstərən şəxslərə məxsus olması haqqında fikirlərə son qoyulmuş oldu.

Beləliklə, uşaq hüquqlarının müdafiəsi 2 mühüm istiqamətdə inkişaf etmişdir: bir tərəfdən, onun insan kimi hüquqlara, bilavasitə aid olmasıdır; digər tərəfdən, sosial cəhətdən zəif və tam fəaliyyət qabiliyyətli olmayan şəxslər kimi, valideynlər və ya onu əvəz edən şəxslər, cəmiyyət və dövlət tərəfindən dəstəklənməlidir. Bu isə onların yeni statusunun meydana çıxmasına səbəb olmuşdur. Təsadüfi deyildir ki, 1989-cu il Konvensiyasını "Uşaqların azadlığı üçün Böyük Xartiya", "Uşaq hüquqlarının Dünya Konstitusiyası" adlandırırlar. Bütövlükdə, 1989-cu il Konvensiyasının xarakterik xüsusiyyətləri uşaqların hüquqlarının vahid bir kompleks halında sistemləşdirilməsi kimi müəyyən edilməsidir. Konvensiyanın Preambulasında bu sahədə əməkdaşlığın zəruriliyi əsaslandırılmış və ayrı-ayrı beynəlxalq sənədlərdə təsbit olunan hüquqların sistemləşdirilməsi xüsusiyyətindən gedir. Preambula, 3 hissə, 54 maddədən ibarət Konvensiyada hüquqların sistemləşdirilməsinə nail olmağı çalışılmışdır.

E.Verhelfen insan hüquqlarının ənənəvi təsnifatlandırılmasına əsasən, Konvensiyanı 5 mühüm tərkib hissəyə ayırır: uşaqların mülki hüquqları və uşaqların siyasi hüquqları, uşaqların iqtisadi hüquqları, uşaqların sosial hüquqları, uşaqların mədəni hüquqları.

Bütövlükdə, 1989-cu il Konvensiyası 3 əsas xüsusiyyəti ilə diqqəti cəlb edir. Bu zaman, birincisi, uşaq hüquqlarının vahid sistemləşdirilməsi və onların hüquqlarının beynəlxalq cəmiyyətin diqqətinə çatdırılması. İkincisi, Konvensiyada indiyə qədər heç bir beynəlxalq sənəddə nəzərdə tutulmayan hüquqların və uşaqlara aid məsələlərin əks olunması. Üçüncüsü, Konvensiyanın yerinə yetirilməsi xüsusiyyətlərinə görə.

Eyni zamanda, bura əvvəllər müəyyən edilən məsələlərin ciddi şəkildə Konvensiya ilə ümummacburi xarakter kəsb etməsi də aiddir. Daha sonra, Konvensiya uşaqlara münasibətdə yeni etik prinsiplər və beynəlxalq davranış normaları müəyyən etmişdir. Konvensiyanın 3 əsas məqsəd daşıması onun maddələrinin təhlilində birbaşa müəyyən edilir: bütövlükdə, digər müqavilələr çərçivəsində müəyyən edilmiş insan hüquqlarını uşaqlara münasibətdə təsdiq etmək; uşaqların spesifik xüsusiyyətlərini nəzərə alaraq, bir sıra əsas hüquqları möhkəmləndirmək; uşaqlar üçün aktual olan sahələrdə normalar müəyyən etmək. Eyni zamanda, Konvensiya ilə yeni hüquqlar kompleksi də əks olunmuşdur: öz fərdiliyini saxlamaq (8-ci maddə); hərbi hərəkatlarda iştirak etməmək (38-ci maddə və 9-cu maddə).

Konvensiya müddəalarının bəzilərinin təhlili onun kifayət qədər əhəmiyyətli bir sistemə malik olduğunu sübüt edir. 1-ci maddədə qeyd edilir ki, hər bir insan 18 yaşına çatanadək bu Konvensiyanın məqsədləri üçün uşaq sayılır, bu məqsədlə ki, həmin uşaq barədə tətbiq edilən qanuna görə, o, yetkinlik yaşına daha əvvəl çatmış olmasın.

Rus hüquq - ensiklopediyasında uşaq dedikdə, yetkinlik (18) yaşına çatmayan şəxs başa düşülür. Oksford ingilis lüğəti (Oxford English Dictionary) uşaq anlayışını ("child") tam fiziki inkişafa çatmamış gənc insan kimi müəyyən edir. Psixoloji cəhətdən isə uşaq hüquqları ilə əlaqədar yaş mərhələləri belə fərqləndirilir: körpə yaş (anadan olandan 1 yaşa qədər); ilkin uşaqlıq (1 yaşdan 3 yaşa qədər); məktəbəqədər yaş dövrü (3 yaşdan 6-7 yaşa qədər); balaca məktəb yaş dövrü (6-7 yaşdan 11-12 yaşa qədər); yeniyetməlik dövrü (11-12 yaşdan 14-15 yaşa qədər); ilkin gənclik illəri (14-15 yaşdan 17-18 yaşa qədər).

N.Adilov yazır: "Konvensiyanın 2-ci maddəsinin əsas xüsusiyyəti onun, bütövlükdə, insan hüquqları amili ilə sıx şəkildə bağlı olmasını müəyyən edir. Belə ki, həmin maddənin 1-ci hissəsində qeyd olunur ki, iştirakçı dövlətlər uşağın, onun valideynlərinin və ya qanuni qəyyumlarının irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidələrindən, milli-etnik və ya sosail mənşəyindən, əmlak vəziyyətindən, səhhətindən və doğum şəraitindən, yaxud hər hansı başqa hallardan asılı olmayaraq, heç bir ayrı-seçkiliyə yol vermədən, onların yurisdiksiyası daxilində hər bir uşaq üçün bu Konvensiyada nəzərdə tutulmuş bütün hüquqlara hörmət bəsləyir və onları təmin edirlər.

Konvensiyanın 4-cü maddəsi bu istiqamətdə bir sıra tədbirlərin görülməsini müəyyən edir. Belə ki, iştirakçı dövlətlər bu tanınan hüquqların həyata keçirilməsi üçün bütün lazımi qanunvericilik tədbirlərini, inzibati və digər tədbirləri görürlər. İştirakçı dövlətlər iqtisadi, sosial və mədəni hüquqlar barədə belə tədbirləri malik olduqları ehtiyacların maksimum çərçivəsində və lazım gəldikdə, beynəlxalq əməkdaşlıq çərçivəsində görürlər.

Konvensiyasının 27-ci maddəsində qeyd edilir ki, iştirakçı dövlətlər hər bir uşağın fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazım olan həyat səviyyəsinə malik olmaq hüququnu təsdiq edirlər.

Konvensiyada mühüm məsələlərdən biri də qeyd-şərtlə əlaqədardır. Qeyd etmək lazımdır ki, bütövlükdə, Konvensiyanın 51-ci maddəsində bu məsələyə münasibət birbaşa bildirilmişdir. Belə ki, 51-ci maddənin 1-ci hissəsində qeyd edilir ki, BMT Baş Katibi dövlətlərin təsdiqetmə və ya qoşulma anında irəli sürdükləri qeyd-şərtlərin mətnini alır və bütün dövlətlərə göndərir. Eyni zamanda, həmin maddənin 3-cü hissəsində göstənilir ki, qeyd-şərtlər istənilən vaxt BMT Baş Katibinə müvafiq bildiriş göndərmək yolu ilə geri götürülə bilər".

Bununla əlaqədar mühüm məsələ maddənin 2-ci hissəsində göstərilmişdir. Belə ki, qeyd edilmişdır ki, bu Konvensiyanın məqsəd və vəzifələri ilə bir araya sığmayan qeyd-şərtlər yolverilməzdir.

Bu məsələdə xüsusi yanaşma tələb edilir. Bəzi dövlətlər tərəfindən Konvensiyaya qeyd-şərtlərin bu və ya digər hüquqlar praktikasında həyata keçirilmosi ciddi problemlər yaradır. Eyni zanıanda, Konvensiyanın 4-cü maddəsində dövlətlərin müəyyən tədbirlər görmək barədə fəaliyyəti bu zaman xüsusi nəzərə almalıdır. Bütövlükdə, 69 dövlət tərəfindən Konvensiyaya qeyd-şərt edilmişdir. Bəzi müsəlman dövlətləri tərəfindən edilən qeyd-şərtlər islam qanunları (dini) və bir araya sığmayan Konvensiya müddəalarının tətbiqini istisna etməyə yönəlmişdir. Bir çox islam dövlətlərinin din azadlığı ilə əlaqədar 14-cü maddəyə qeyd-şərtləri də xüsusi qeyd edilməlidir. Eyni zamanda, 21-ci maddəyə (övladlığa götürməyə) qeyd-şərt edən dövlətlər kimi Argentina, Banqladeş, Venesuela, Kanada, Misir, İndoneziya, İordaniya və s. fərqlənir.

Bütövlükdə, 12 dekabr 2003-cü il tarixindəki məlumatlara görə, Konvensiya 140 dövlət tərəfindən ratifikasiya edilmişdir. Bundan başqa, 46 dövlət Konvensiyanı imzalayaraq ratifikasiya etmiş, 6 dövlət onu hüquq varisliyi qaydasında qəbul etmişdir.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# AŞPA-nın “siyasi məhbus” oyunbazlığı

*Yaxud Azərbaycan dövlətinin ardıcıl uğurları, dünyadakı mövqeyini möhkəmləndirməsi bəzi qüvvələri niyə narahat edir?*

***Bəlli olduğu kimi, Avropa Şurası Parlament Assambleyasının Hüquq məsələləri və insan haqları komitəsində “Azərbaycanda siyasi məhbuslar” adlı hesabatın hazırlanması üzrə məruzəçi təyin edilib. Bunu komitənin iclasında iştirak edən Azərbaycan Milli Məclisinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib. Belə ki, İslandiyadan olan Thorhildur Sunna Evarsdottir hesabatı hazırlamaq üçün məruzəçi təyin olunub. T. S.Evarsdottir İslandiyanın, nə qədər qəribə görünsə də, Pirat adlı partiyasını təmsil edir. Onun hüquqşünas, insan haqları müdafiəçisi və jurnalist olduğu bildirilir.***

Qeyd edək ki, hesabatın hazırlanması təşəbbüsü hollandiyalı Piter Omtzigt tərəfindən irəli sürülüb və məruzənin hazırlanmasına dair qərar Büro tərəfindən verilib.

## Niyə AŞPA tərəfindən Dilqəm Əsgərov və Şahbaz Quliyevin girov saxlanılmaları barədə Ermənistana qarşı tələblər irəli sürülmür?

Digər məsələ ondadır ki, Azərbaycanla bağlı dəfələrlə qərəzli və reallığa söykənməyən qərarlar hazırlayan AŞPA, nədənsə, digər keçmiş sovet respublikaları, eləcə də, Qərbdə baş verən insan haqları pozuntularına qarşı hesabatlar hazırlamır. Halbuki Azərbaycanla qonşu olan və torpaqlarımızın 20 faizini hələ də işğal altında saxlayan Ermənistanda insan haqlarının pozulmasını və siyasi məhbusların mövcudluğunu sübut edən minlərlə faktlar mövcuddur.

O cümlədən, nədənsə, öz doğma yurdyuvalarının həsrətini çəkdiklərinə görə işğal altında qalan Kəlbəcərə səfər edən, oradakı məzarlarını ziyarət edən, nəticədə, erməni separatçılarının girovuna çevrilən Dilqəm Əsgərov və Şahbaz Quliyev barədə erməni tərəfinə qarşı tələblər irəli sürülmür. Bu kimi reallıqlar AŞPA-nın səmimi qurum olması amilini, necə deyərlər, kölgədə qoymaqdadır.




## AŞPA-nın nə üzv dövlətə, nə də özünə hörməti yoxdur!

Başqa tərəfdən, o da bəllidir ki, Avropa Şurasının Azərbaycanda “siyasi məhbuslar” üzrə xüsusi məruzəçi təyin etməsi, həm də belə anlamı ifadə edir ki, bu təşkilatın nə üzv dövlətə, nə də özünə hörməti yoxdur. Nədənsə, AŞPA yalnız Azərbaycanı hədəfə götürür və digər ölkələrdə baş verənləri araşdırmır. Yəni burada qərəzin mövcudluğu göz önündədir. Başqa ölkələri kənara qoyub, onların əməllərinə göz yummaq, hüquqda, beynəlxalq qanunvericilikdə olmayan “siyasi məhbus” terminini yalnız bir ölkəyə şamil etmək, digər ölkələrə gəldikdə isə, bu terminin yerinə “azadlıqdan məhrum olunmuş insanlar” ifadəsini işlətmək, məhz bu təşkilatın qeyri-ciddiliyini sərgiləməkdədir.

O da sirr deyil ki, “siyasi məhbus” məsələsinin gündəmə gəlməsində Azərbaycanda fəaliyyət göstərən bəzi siyasiləşmiş qeyri-hökumət təşkilatlarının, eləcə də, adlarını müxalifət partiyası qoyub, bu ad altında siyasi alverlər edən təşkilat “liderlərinin” də rolları var. Burada da məqsəd bəllidir...

## Məqsəd, Azərbaycandakı cüzi problemləri süni şəkildə böyütmək, regionun digər dövlətlərində olan böyük problemləri isə cüzi məsələ kimi qələmə verməkdir

Bir sıra anti-Azərbaycan dairələrinə nökərçiliklər edən həmin təşkilatlar və onların rəhbərləri ölkəmizin regionun liderinə çevrilməsindən narahat olan xarici ağalarına yalmanaraq, “siyasi məhbus” məsələsində öz bizneslərini güdürlər. Azərbaycanın dövlətçilik maraqlarını valyutalara satan xəyanətkarlar, məhz onların nökərləri olduqlarını, bu və ya digər baxımdan etiraf edirlər. Beləliklə, müstəqil, məqsədyönlü və qətiyyətli siyasət aparan Azərbaycan dövlətinin ardıcıl uğurları, dünyadakı mövqeyini möhkəmləndirməsi bəzi qüvvələri narahat edir. Həmin qüvvələr isə bunun yolunu Azərbaycandakı cüzi problemləri süni şəkildə böyütmək, regionun digər dövlətlərində olan böyük problemləri isə cüzi məsələ kimi qələmə verməkdə görürlər.

## Bu cür addımlar Azərbaycanın daxili işlərinə müdaxilə və ölkədə ictimai-siyasi sabitliyin pozulmasına istiqamətlənmiş əsassız və qərəzli addım kimi qiymətləndirilə bilər

Ümumiyyətlə, heç bir Avropa dövlətinin cinayət məcəlləsində “siyasi məhbus” anlayışı olmayıb və hazırda da yoxdur. Bu anlayış beynəlxalq sənədlərə və konvensiyalara salınmayıb. Ona görə də, bəzi beynəlxalq təşkilatların, eləcə də, Avropa Şurasının üzvü olan hər hansı bir ölkənin “siyasi məhbus” adı altında Azərbaycanda layihə həyata keçirmək niyyətinin saf məqsəd daşımadığı bəribaşdan aydındır. Nəticə olaraq isə, bu cür addımlar Azərbaycanın daxili işlərinə müdaxilə və ölkədə ictimai-siyasi sabitliyin pozulmasına istiqamətlənmiş əsassız və qərəzli addım kimi qiymətləndirilə bilər. Söz yox ki, belə davam edərsə, Azərbaycan dövləti də kəskin və həqiqətlərə söykənən reallıqlardan çıxış edərək, əslində, Avropa ölkələrində, eyni zamanda, Qərbdə baş verən kütləvi hüquq pozuntularını ifşa edə bilər. Belə faktlar isə kifayət qədərdir.

***Rövşən RƏSULOV***

# “AzerTelecom” korporativ müştərilərə kiber hücumlardan müdafiə xidməti təqdim edir

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti “AzerTelecom” korporativ müştərilərə kiber hücumlardan (DDOSS attack protection) müdafiə xidməti təklif edir. Qeyd edək ki, bu, şirkətin təqdim etdiyi internetin topdan satışı, ayrılmış kanal xidməti, beynəlxalq tranzit kimi xidmətlərlə bərabər şirkətin daim təkmilləşən xidmət portfoliosuna daxildir.***

AzerTelecom

Hazırda bütün dünya üzrə kiber hücumlarının geniş vüsət aldığı, xidmətdən normal istifadəyə ən müxtəlif maneələrin yaradıldığı şəraitdə belə hücumlardan qorunmaq mühüm əhəmiyyət kəsb edir. Belə ki, DDOS (A distributed denial of service - xidmətdən imtinaya gətirən hücumlar) hücumlar veb-saytın, veb-serverin və digər şəbəkə resurslarının sabit fəaliyyətini pozmaq, çətinləşdirmək məqsədilə həyata keçirilir. Bu zaman serverə xidmət tələbi ilə çoxlu sayda sorğular gəlir və sorğuların emalı üçün resurslar çatışmayanda bu, xidmətin dayanmasına və fəaliyyətin normal bərpası üçün izafi xərclərin yaranmasına gətirib çıxardır.

“AzerTelecom” şirkətinin xidmət portfoliosunda mövcud olan və müxtəlif müştərilərə təqdim edilən DDOS hücum əleyhinə müdafiə xidməti isə kiber hücumlar zamanı onların istifadə etdikləri xəttin müdafiəsini və internet xidmətinin istifadəçiyə maneəsiz çatdırılmasını təmin edir. DDOS hücum əleyhinə müdafiə müştərilərə təhlükəsiz formada internet xidmətindən istifadə etmək imkanı yaradır və onları bu tip hücumlar zamanı əlavə xərclərin çəkilməsindən azad olurlar. “AzerTelecom” kiber hücumların dünya miqyasında artdığı şəraitdə bu hücumlardan müdafiə xidmətini innovativ texnologiya əsasında 24/7 rejimində təqdim edir.

Qeyd edək ki, Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatoru “AzerTelecom” MMC 2008-ci ildən fəaliyyət göstərir və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru “Bakcell” şirkətidir. “AzerTelecom” internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), lokal VoİP, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

# Təhmasib Novruzov: “Bu cür müxalifət məhvə məhkumdur”

***Dağıdıcı müxalif ünsürlər xarici maraqlı qüvvələrin maddi və mənəvi dəstəyini əldə etmək üçün hər cür yaramazlıqdan və həyasız əməllərdən istifadə etməkdən çəkinmirlər. Son günlər sosial şəbəkələrdə ölkə həyatı ilə bağlı AXCP, Müsavat və ADP kimi xalqdan ayrı düşən partiyaların ictimai rəyi çaşdırmağa yönələn bəyanatlar səsləndirmələri xarici qüvvələrə yarınmağa xidmət edən addımlardandır.***



“Azadlıq Hərəkatçılar Birliyi”nin sədri Təhmasib Novruzov da “Səs” qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycanda özünə dəstək tapmayan müxalifət təmsilçiləri xarici qüvvələrin yardımı hesabına nəyə isə nail olmaq istəyirlər: “Dağıdıcı müxalifət düşərgəsini təmsil edən partiya sədrlərinin bu cür hərəkətlərə əl atmalarının sonu yenə də iflasdır. Belə bir misal var: milçək bir şey deyil, amma ürək bulandırır. Dağıdıcı ünsürlər sosial şəbəkələrdə çıxış edərək insanları itaətsizliyə, qarşıdurmalara çağırmaları onlara havadarları tərəfindən verilən növbəti tapşırıqdır. Onlar bu cür tapşırıqları yerinə yetirmələri qarşılığında maliyyə vəsaiti alırlar. Həm xarici, həm də daxili qüvvələrin AXCP-nin və Müsavatın qarşısında qoyduğu vəzifə ölkəmizdə xoş olmayan ab-hava yaratmaqdan ibarətdir. Bunu da onlar yatıb ancaq yuxularında görərlər. Çünki onların bu cür sərsəm çıxışlarını heç kəs ciddiyə almır”.

T.Novruzovun sözlərinə görə, müxalifətin hay-küy salmasının arxasında xaricdə olan havadarlarına özlərini reklam etmək istəyi dayanır: “Dağıdıcı müxalifət təmsilçiləri xarici havadarlarına demək istəyirlər ki, baxın, biz fəaliyyət göstəririk. Bir sözlə, heç bir sözü, təklifi və inkişaf üçün bacarığı, qabiliyyəti olmayan şəxslərin ölkəmiz haqqında xoşagəlməz fikirlər səsləndirməsi onların yaramaz bir qrup olduğunu təsdiqləyir. Ümumiyyətlə, maliyyə məsələsi elə məsələdir ki, ya gərək boyun əyməyəsən, əgər boyun əydinsə, onda artıq o, sənin üzərində hökmdara çevriləcək. Demək olar ki, müxalifət düşərgəsini təmsil edən həmin şəxslər maliyyə məsələsinə görə, xarici qüvvələrin əlində bir alətə çevriliblər”.

T.Novruzov, onu da bildirdi ki, müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq ümid edirlər ki, nə vaxtsa onlar da nəyə isə nail ola biləcəklər: “Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. Təəccüblü məqam odur ki, həmin liderciklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu büruzə vermək istəmirlər. Bu isə onların faciəsidir”.

Təşkilat sədri onu da bildirdi ki, müxalifət düşərgəsində təmsil olunan şəxslər bir-biri ilə mehriban düşmənlərdir: “Çünki gözləri bir-birini götürmür, amma yalandan bir-birlərinin üzünə gülürlər. Əslində isə, bir-birlərini sıradan çıxarmaq üçün hər şeyə əl atarlar. Bu baxımdan, bu gün müxalifətdə heç bir irəliləyişdən söhbət gedə bilməz. Bu cür müxalifət məhvə məhkumdur, necə ki, bunu yaşamaqdadır”.

***GÜLYANƏ***

# Uşaqlar arasında bərabərlik və uşaq fikrinə hörmət edilməsi

***Uşaq Hüquqları Konvensiyasında əksini tapmış bütün hüquqlar istisnasız olaraq uşaqların hamısına şamil edilir. Dövlət uşağı hər hansı formada ayrı-seçkilikdən qorumağa və onun hüquqlarını qorumaq üçün lazımi tədbirləri görməyə borcludur. Ayrı-seçkilikdən qorunmaq bütün, yəni - iştirakı, yaşamağı, inkişafı və müdafiəni təmin edən hüquqların hamısından istifadə etmək deməkdir. Lakin hələ də, ayrı-seçkilik bütün cəmiyyətdə və uşaq həyatının hər bir sahəsində müşahidə olunur.***

Nabil Seyidov yazır: “Ayrı-seçkilik və ya qeyri-bərabər yanaşma müxtəlif formalarda özünü büruzə verir. Uşaq müxtəlif səbəblər üzündən ayrı-seçkiliyə məruz qala bilər. Məsələn, xüsusi ehtiyaca malik olduğuna, küçədə yaşadığına, HİV/AİDS-ə yoluxduğuna, valideyn himayəsindən məhrum olduğuna, kənddə yaşadığına görə və s. Ayrı-seçkilik, həmçinin, irqçilik, gender, dil, dini etiqadına və etnik mənsubiyyətinə görə də ola bilər.

Ayrı-seçkiliyin müxtəlif formaları olsa da, uşaqlara vurulan mənfi təsir eynidir: qayğının azlığı, səhhətin pisləşməsi, sui-istifadə, istismar, zorakılıq, yaşam bacarıqlarının zəifləməsi və yaşayış səviyyəsinin aşağı düşməsi.

Uşaqlar ayrı-seçkilik və bərabərsizliyə ən tez uğrayan təbəqədir. Çox vaxt onlar cavabdeh olmadıqları işlərə görə məsuliyyət daşıyırlar. Bəzən, “uğursuz” gündə həyata gəlmək və ya əkiz doğulmaq uşağı həyatı boyu ayrı-seçkiliyə məruz qoyur. Məsələn, Çində məhbusların uşaqları böyük ayrı-seçkiliyə məruz qalırlar, bu da onların qanında “cinayət” olduğu ilə izah edilir. Ailə üzvləri, çox vaxt da cəmiyyət bu uşaqlara qayğı göstərməkdən imtina edir. Kimsəsiz, valideyn himayəsindən məhrum olmuş və ya valideynləri tərəfindən atılmış uşaqlar küçələrdə yaşayır və buna görə də tibbi yardımdan, hətta icbari təhsildən kənarda qalır. Hüquqların müdafiə olunmasından və normal yaşamaq hüquqlarından istifadə edə bilmirlər”.

Ayrı-seçkiliyin digər geniş yayılmış forması - gender və ya cinslərarası fərqliliyə əsaslanmış ayrı-seçkilikdir. Bu, dünyanın tamam yarısında müşahidə olunur. Heç bir dövlət bu tip ayrı-seçkilikdən azad ola bilmir və əksəriyyəti hələ də ayrı-seçkiliyi gücləndirən adət-ənənələrə sadiq çıxır. Gender əsasında olan ayrı-seçkilik geniş yayılaraq, qadınların inkişafı və rifahının yüksəlməsinə böyük təhlükə törətməkdədir.

Uşaq Hüquqları Konvensiyası xüsusi qayğıya ehtiyacı olan və (əqli və fiziki cəhətdən qüsurlu) kimsəsiz uşaqlara daha böyük qayğı göstərməyə dövlətləri bütün uşaqları ayrı-seçkiliyin hər formasından müdafiə etmək məqsədi ilə Konvensiyanı ratifikasiya edərkən götürdükləri öhdəlikləri yerinə yetirməyə, milli qanunvericiliyi tənzimləməyə və uşaqların bərabərliyini təmin etməyə çağırır.

Uşaqların fikirlərini dinləmək və onlara hörmət etmək, adətən, uşaqların iştirakına aid edilir. Bu prinsiplər uşaqların yaşadıqları dünyanın qurulması və formalaşmasında oynadıqları rolu təmin edir.

Konvensiya uşaqların həyatına dair hər bir sahə və məsələ üzrə-məktəbdə, ailədə, evdə, səhiyyə müəssisələrində azad fikir söyləmək, onlara ünvanlanan xidmətlərin hazırlanmasında iştirak etmək və həyata keçirilməsinə dair fikir söyləməyə olan hüquqlarını təmin edir. Son 10 ildə bir çox ölkələrdə uşaqlar onların ətrafında baş verənlərə təsir etmək imkanı qazanmışdır.

12-ci maddə, həmçinin, məhkəmə, inzibati məsələ və ya mübahisələr zamanı uşaqların iştirak etmək hüququnu təmin edir. Buna görə bir çox dövlətlər öz qanunlarını dəyişmiş və onları Konvensiyaya uyğunlaşdırmışdır. Məsələn, Belçikada uşaqlar valideynləri arasında baş verən mübahisələr və ya boşanma zamanı ifadə vermək və fikir söyləmək hüququnu əldə etmişlər. Böyük Britaniyada uşaqlara dair qərar çıxarılarkən, hakimiyyət orqanları tərəfindən uşaqların fikir və arzularını öyrənmək tələb edilir. Uşaqlar onlara dair bütün qərarların hazırlanması prosesində mütləq iştirak etməlidirlər. N.Seyidovun fikrincə, Konvensiyanın 12-ci maddəsi çox mübahisəli maddədir və bunun bir sıra səbəbləri vardır. Yaşlı nəsil çox vaxt uşaqları dinləmir və ya dinləməkdən boyun qaçırır. Bir çox hallarda “dinləmə” formal xarakter daşıyır. Onlar fikirləşirlər ki, uşaqlar hər hansı sahəyə aid qərar və ya fikir söyləməyə qadir və bunun üçün lazımi bilik və bacarığa malik deyillər. Onlar uşaqların fikirlərini qeyri-ciddi qarşılaya bilərlər. Bu maddə uşaqların dediklərini dinləmək, fikirlərini öyrənmək və uşaqlarla bağlı qərar qəbul edildikdə, onların iştirakının təmin edilməsi və fikirlərinin nəzərə alınması prinsipinə əsaslanır.

Konvensiya qəbul olunanda, bəzi maddələrin uşaqlara daha böyük muxtariyyət verəcəyi və valideynlərin uşaqların üzərində olan hüquqlarına təsir göstərəcəyi təhlükəsi ortaya çıxmışdır. Lakin heç bir məhdudlaşdırma baş vermədi. Qeyd etmək lazımdır ki, Konvensiya uşaq üçün ən səmərəli, faydalı və onların inkişafı üçün ən yaxşı yer kimi ailəni və doğma evlərini tanıyır.

YUNİSEF Uşaq Hüquqları Komitəsi ilə də sıx əməkdaşlıq edir. Belə ki, iştirakçı dövlətlərin hesabatlarına baxılmasından başqa, Uşaq Hüquqları Komitəsi YUNİSEF tərəfindən təşkil edilmiş və BMT-nin İnsan Hüquqları Mərkəzi və digər ixtisaslaşdırılmış təsisatlrın köməyi ilə 1992-ci ildə Latın Amerikasında, 1993-cü ildə Cənub-Şərqi Asiya regionu üzrə Belçikada regional iclaslar keçirmişdir. Bu iclaslar Uşaq Hüquqları Konvensiyasının müddəalarının regional səviyyədə realizəsini təmin etmək, uşaq hüquqları sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmək; komitə üzvlərinə yerlərdə uşaq hüquqlarının həyata keçirilməsinə dair şəraitlə birbaşa tanış olmaq imkanı verir. Komitənin bu növ fəaliyyəti yeni iş metodu hesab edilməklə, uşaq hüquqlarının ən yaxşı həyata keçirilməsi üçün fəaliyyət vasitəsi hesab edilir.

Nadir Adilov göstərir ki, uşaq hüquqlarının təmin edilməsində Dünya Bankı da xüsusi yer tutur. Özündə 190-a yaxın dövləti birləşdirən BMT-nin ixtisaslaşdırılmış təsisatı kimi Dünya Bankının fəaliyyətinin əsas məqsədi ondan ibarətdir ki, aşağı gəlirli ölkələrdə yoxsulluğu aradan qaldırsın, sabit inkişafa kömək etsin, inkişaf etməkdə olan ölkələrdə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və əsas keyfiyyətli xidmətlərə nail olmağa kömək etmiş olsun (məsələn, təhsil, səhiyyə, təmiz su ilə təchizat və s.).

Uşaqların təhsil hüququ sahəsində 1963-cü ildən başlayaraq, Dünya Bankı məktəbləri, təhsil proqramlarının və yeni məktəb binalarının tikintisini maliyyələşdirməyə başladı. Özünün sonrakı inkişaf strategiyasında Dünya Bankı təhsil sisteminin keyfiyyətinə və başlanğıc təhsilə nail olmaq probleminə xüsusi diqqət yetirmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Eyni zamanda, Dünya Bankı qızların, kənd uşaqlarının, milli azlıqların uşaqlarının, qaçqınların və köçəri həyat sürənlərin uşaqlarının, evsiz uşaqların, xüsusi ehtiyacı olan uşaqların təhsilinin maliyyələşdirməsi imkanlarını da nəzərdən keçirir.

Dünya Bankının həyata keçirdiyi proqramlar içərisində “Sürətli tədbirlər təşəbbüsü” və “Hamı üçün təhsil” proqramları bir-birilə əlaqədar əsas vəzifəni nəzərdə tutur:

- ümumi başlanğıc təhsili 2015-ci ilə qədər yekunlaşdırmaq;
- 2010-cu ilə qədər qızların və oğlanların birinci sinfə getmələrini tam təmin etmək;
- oxuyanların bilik səviyyəsinin qaldırılmasına nail olmaq.

Burada əsas məsələlərdən biri də ümumbaşlanğıc təhsilin tam təmin edilməsi və ümumi savadlılığın təmin edilməsidir. Bank münaqişə vəziyyətlərində müharibədən ziyan çəkən uşaqların hüquqlarının müdafiəsi üzrə xüsusi proqram işləyib-hazırlamışdır. Bu zaman bankın əsas tərəfdaşı - YUNİSEF olmuşdur.

Bundan başqa, YUNİSEF və BƏT-lə birlikdə Dünya Bankı “Uşaq əməyi və onun nəticələrinin başa düşülməsində yeni strategiyaların işlənib-hazırlanması” adlı Ümumi Layihə hazırlamışdır. Layihənin əsas məqsədinə uşaq əməyinin və bu sahədə informasiyanın tədqiqi metodlarının təkmilləşdirilməsi, informasiyanın alınması metodların səmərəliliyinin yüksəldilməsi, uşaq əməyi ilə mübarizə metodlarının təkmilləşdirilməsi daxildir.

1997-ci ildən başlayaraq, Dünya Bankı uşaqların iqtisadi istismarı və uşaq əməyinin ləğvinin aradan qaldırılması sahəsində müzakirələr üzrə yeni layihələr işləyib-hazırlamışdır.

Hal-hazırda bütün sektorlarda və inkişaf etməkdə olan ölkələrdə 1800-dən çox layihə işlənir. Bu sahədə mühüm məsələlərdən biri də QİÇS-lə mübarizədir. Dünya Bankı BMT-nin QİÇS-lə mübarizədə Birləşmiş Proqramının maliyyəçisidir. 16 sentyabr 2003-cü ildə qüvvəyə minən Dünya Bankının yeni strategiyası “Şərqi Avropa və Mərkəzi Asiyada QİÇS-lə müşayiət olunan böhranın aradan qaldırılması yolları” adlanır. “Yeni minilliyin başlanğıcında inkişaf sahəsində məqsədlər” adlanan proqram çərçivəsində əsas məsələlər kimi 2015-ci ilə qədər təhsil alan şagirdlərin problemləri, uşaq ölümü, analığın mühafizəsi, su təchizatı və s. dayanır.

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 29 iyun


## Düyü pəhrizi ilə arıqlamaq üsulları



Orqanizmi təmizləməyin, artıq çəkidən xilas olmağın müxtəlif üsulları var və onlardan biri də yekcins pəhrizlərdir. Düyü pəhrizi də onların sırasına daxildir.

Pəhrizin üstün cəhəti ondan ibarətdir ki, hər kəs özünə uyğun forma seçə bilər. Düyü çox faydalı bitki və yarma hesab olunur və mütəmadi və qaydasında arıqlamaq istəyənlər üçün faydalı üsuldur. Onun orqanizmə göstərdiyi təmizləyici təsir nəticəsində duzlar, şlaklar və digər zərərli maddələr bədəndən xaric edilir.

Orta ölçülü 5 bankanın hər birinə 2 xörək qaşığı düyü əlavə edib üzərinə 1 stəkan təmiz su tökülür, 4 gün müddətində bankalardakı düyülərin suyu dəyişdirilir, beşinci gün artıq birinci bankada olan su süzülür, düyüsü isə bişirilmədən yeyilir. Boşalmış bankaya isə yenidən düyü və təmiz su tökülür. Növbəti gün ikinci bankadakı düyülərin suyu süzülüb yeyilir, əvəzinə həmin bankaya su və 2 xörək qaşığı düyü tökülür. Bu qayda ilə prosedur iki həftə davam etdirilir və həmin pəhriz zamanı duz tamamilə rasiondan çıxarılır.

Düyü pəhrizinin digər bir forması zamanı düyü ilə yanaşı, dəniz məhsulları və ya sadəcə balıq qəbul edilir. Beş gün ərzində bütün yeməklərdən imtina edilir, əvəzində gündə bir boşqab düyü, bir boşqab isə balıq və ya hər hansı dəniz məhsulu yeyilir. Pəhriz zamanı yeməkləri qatmaq olmaz və qidalanma zamanı göyərtilərdən də istifadə etmək olar.

Pəhrizin digər bir sadə variantı bir həftə ərzində yalnız qaynadılmış düyü yeməkdən ibarətdir. Əlavə olaraq tərəvəz və göyərtilər də yeməyə icazə verilir, bir şərtlə ki, tərəvəzin miqdarı düyünün miqdarını keçməsin. Yaxşı olar ki, rasiondan ədviyyat, mayonez, duz və istiot çıxarılıb zeytun yağı və soya sousu ilə əvəz edilsin. Düyü pəhrizi zamanı fiziki iş və idmanla az məşğul olmaq lazımdır. Əgər aclıq üstün gəlirsə, gün ərzində 3 ədəd alma yemək olar. Pəhriz zamanı yeyilən düyünün üstündən dərhal su içmək olmaz. Birhəftəlik pəhriz forması tətbiq edilən zaman sutka ərzində 1 stəkan düyü yeyilməlidir. Yeməyə 20 dəqiqə qalmış və ya yeməkdən saat yarım sonra maye qəbul edilməlidir. Pəhriz müddətində şəkərsiz yaşıl və ya qırmızı çay da içmək olar.

## "Omeqa-3" yağ turşularının beynə faydaları araşdırılıb



Son illər alimlər "Omeqa-3" doymamış yağ turşularının beynə təsiri ilə bağlı geniş tədqiqatlar aparıblar. ABŞ-ın Milli Səhiyyə İnstitutunun məlumatına görə, beyində ciddi proseslərə səbəb olan bu faydalı yağ turşularından hazırlanan həblərin satışında yüksək artım davam edir. AZƏRTAC "Time" jurnalına istinadla xəbər verir ki, Böyük Britaniyanın Bornemuaus Universitetinin professoru Saymon Dial "Omeqa-3" doymamış yağ turşularının özünüifadə genlərinə, habelə stressin azaldılması və beynin qanla təchizi üçün müsbət təsirini qeyd edib. Onun sözlərinə görə, bu yağlar insan beyni üçün divardakı kərpic rolunu oynayır.

Digər alim - İllinoys Universitetinin Beyin Mərkəzinin direktoru, professor Aron Barbinin apardığı tədqiqatlar nəticəsində məlum olub ki, "Omeqa-3" insanın qavrama qabiliyyətini artırır və beyin nahiyəsində məlum strukturların funksiyalarını gücləndirir. Lakin o, ingilis həmkarının bu yağların depressiya əleyhinə təsiri ilə bağlı fikirlərini qəbul etmir. Bundan başqa, onun tədqiqatları "Omeqa-3" həblərinin 40 yaşdan yuxarı insanların beynində qavrama funksiyalarının artmasına təsir etmədiyini göstərir. Professor Barbi sözügedən həblərin qəbulu zamanı orqanizmin xüsusiyyətlərini nəzərə alaraq fərdi yanaşmanın zəruriliyini də vurğulayıb.

Niderland alimlərinin tədqiqatları da maraqlı faktları üzə çıxarıb. Məlum olub ki, menyusunda əsasən balıq yeməkləri olan 55 yaşdan yuxarı insanlarda kəmağıllıq 60 faiz, Altsheymer xəstəliyi riski isə 70 faiz azalır. Amma alimlərin qənaətinə görə, bu kateqoriyadan olanlar üçün fiziki aktivliyin də həlledici rolu var. Bundan başqa, alimlər "Omeqa-3" yağ turşularını həb vasitəsilə deyil, təzə balıq əti yeməklə qəbul etməyi daha faydalı hesab edirlər.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Əsədov İqbal Fəxrəddin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Braziliya və İsveçrə 1\8 finalda!



İyunun 27-də Rusiyada təşkil olunan futbol üzrə dünya çempionatının on dördüncü günündə "E" qrupunda mübarizəyə yekun vurulub. AZƏRTAC xəbər verir ki, on dördüncü günün sonuncu oyununa meydana "E" qrupunda yer alan Serbiya və Braziliya komandaları çıxıblar. Görüşdə braziliyalılar 2:0 hesabı ilə qalib gəlib. Oyunda Braziliya yığmasında 36-ci dəqiqədə Filip Koutinyo, 68-ci dəqiqədə isə Tiaqo Silva fərqlənib.

Bu qrupdakı digər oyun səkkizdəbir finala çıxmaq şansını itirən Kosta-Rika və İsveçrə komandaları arasında keçirilib. Görüş 2:2 hesabı ilə başa çatıb. Bu nəticəyə baxmayaraq, İsveçrə millisi qrup ikincisi kimi növbəti mərhələyə vəsiqə qazanıb. Xatırladaq ki, indiyədək səkkizdəbir final mərhələsinin 12 iştirakçısı müəyyənləşib. Bu mərhələdə Uruqvay ilə Portuqaliya, Fransa ilə Argentina, İspaniya ilə Rusiya, Xorvatiya ilə Danimarka, İsveç ilə İsveçrə, Meksika ilə Braziliya milliləri qarşılaşacaqlar. Futbol üzrə XXI dünya çempionatının səkkizdəbir final mərhələsinin görüşləri iyunun 30-dan iyulun 3-dək keçiriləcək.

## Azərbaycan gimnastı beynəlxalq turnirdə qızıl medal qazanıb



İyunun 26-dan 27-dək Qroznıda Çeçenistan Respublikasının idman gimnastikası üzrə açıq birinciliyi keçirib. AZƏRTAC xəbər verir ki, bu beynəlxalq turnirdə Azərbaycanın, habelə Rusiya, Qazaxıstan, Özbəkistan və digər xarici ölkələrdən ən güclü idmançılar iştirak edirdi.

Turnirdə Azərbaycan nümayəndəsi Hüseyn Xəlilov ən yüksək mükafat layiq görülüb. Bizim gənc gimnast birinci yeri tutduğuna görə fəxri fərman da alıb. Səkkiz yaşlı Hüseyn Xəlilov idmanla kiçik yaşlarından məşğul olur. O, Azərbaycan Respublikasının dördqat çempionu, idman gimnastikası üzrə çoxsaylı beynəlxalq yarışların mükafatçısıdır.

Hüseyn Xəlilov AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib ki, ölkəmizi beynəlxalq aləmdə təmsil etməyi özü üçün böyük şərəf sayır. Hüseyn Xəlilov daha sonra deyib: "Çıxışlarımı davam etdirmək, həmişə birinci yerləri tutmaq istəyirəm. Gimnastika idmanın bütün növlərinin əsasıdır. O, insanın gücünü, çevikliyini, qələbə əzmini, təmkinlik hissini inkişaf etdirir, təhsildə və gələcək həyatda insana gərək olur".

## "Real" Ronaldonun təzminat qiymətini azaldıb



"Real" Kriştiano Ronaldonun təzminat qiymətini azaldıb. Qol.az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, tərəflər məbləğin 1 milyard avrodan 120 milyon avroya endirilməsi ilə bağlı razılıq əldə ediblər. İndi istənilən klub bu məbləği ödəyib portuqaliyalı ulduzu transfer edə bilər. Ancaq qərar PSJ və "Barselona"ya şamil olunmur. Onlar Ronaldonun keçidi üçün "Real"a 1 milyard avro ödəməlidirlər. Xatırladaq ki, Ronaldo hələ Çempionlar Liqasının "Liverpul"la final oyunundan (3:1) sonra "kral klubu"nu tərk edə biləcəyini istisna etməmişdi.

Qeyd edək ki, 2009-cu ildən "Real"da çıxış edən Ronaldo Madrid təmsilçisinin heyətində keçirdiyi 438 oyunda 450 qola imza atıb. Onun ispan klubu ilə müqaviləsi 2021-ci ilə qədərdir. Hazırda Portuqaliya millisinin heyətində dünya çempionatında çıxış edən futbolçu 3 oyunda 4 qol vurub. Onun komandası 1/8 finalda iyunun 30-da Uruqvayla qarşılaşacaq.

## "Barselona"nın sabiq futbolçusu "Milan"da



"Barselona"nın sabiq yarımmüdafiəçisi Alen Xaliloviç karyerasını İtaliyanın "Milan" klubunda davam etdirəcək. Xorvatiyalı futbolçu "Milan"ın təklifini qəbul edib. Milan şəhərinə gələn futbolçu yeni klubu üçün tibbi müayinədən keçib.

Xaliloviç son mövsümü "Las Palmas"da keçirib. Keçən mövsümdə İspaniya çempionatında 20 matçda meydana çıxan 22 yaşlı futbolçu iki qol vurmaqla yanaşı, iki məhsuldar ötürmə ilə yadda qalıb.


**Baş redaktor:**
**Bəhruz Quliyev**

**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**